## Suriya böhranı müzakirə olundu

Moskvada Türkiyə, Rusiya və Suriya müdafiə nazirlərinin görüşü olub



**Moskvada Rusiya müdafiə naziri, ordu generalı Sergey Şoyqu, Türkiyənin milli müdafiə naziri Hulusi Akar və Suriyanın müdafiə naziri Əli Abdullah Əyyub arasında üçtərəfli görüş olub.**

Bu barədə Rusiya Müdafiə Nazirliyindən bildirilib. Qeyd olunub ki, müdafiə nazirləri regionda sabitlik üçün üçtərəfli dialoqun davam etdirilməsinin zəruriliyini müzakirə ediblər. Məlumata görə, nazirlər Suriya böhranını və bu ölkədə ekstremist qüvvələrlə mübarizə tədbirlərini müzakirə ediblər.

*Qeyd edək ki, Türkiyənin milli müdafiə naziri, ordu generalı Hulusi Akar və Milli Kəşfiyyat İdarəsinin rəisi Hakan Fidan Rusiyanın paytaxtı Moskvada səfərdədir.*

## Azad edilmiş ərazilərdə işləyən mütəxəssislərə 600 manat müavinət veriləcək



**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssisə ilkin maddi-məişət şəraitinin dəstəklənməsi üçün 600 manat müavinət veriləcək.**

Bu, Prezident İlham Əliyevin "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" qanuna dəyişikliyi təsdiqləməsi ilə mümkün olub.

*Bu müavinət 2023-cü il yanvarın 1-dən 2028-ci il yanvarın 1-dək veriləcək.*



## Qarabağdakı təbii yataqların qanunsuz istismarı dayandırılır

**Qarabağ iqtisadi rayonunda yerləşən Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının ermənilər tərəfindən qanunsuz istismarı dayandırılır.**

"Trend"in əldə etdiyi məlumata görə, yataqların qanunsuz istismarını həyata keçirən Base Metal şirkəti mədənin fəaliyyətini dayandırmaq qərarına gəlib.

Xatırladaq ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası 17 gündür davam edir. Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.


❒ № 239 (5760), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 29 dekabr 2022-ci il (cümə axşamı)




## Süleyman Neymətov Naxçıvanın daxili işlər naziri təyin edildi

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov dekabrın 28-də Süleyman Neymətovun Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

*Sərəncamda deyilir:*

"Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq qərara alıram:

Süleyman Əsgər oğlu Neymətov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri təyin edilsin".

*Qeyd edək ki, polis polkovniki Süleyman Neymətov bundan əvvəl Bakının Suraxanı rayon Polis İdarəsinin rəisi vəzifəsində xidmət edirdi.*

# Bakı Fransaya nota verdi

Azərbaycana qarşı açıq böhtan və qərəz əsasında qurulmuş kampaniyanın genişlənərək davam etməsindən dərin narahatlıq ifadə olunub



**28 dekabr 2022-ci il tarixində Fransa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb və Fransanın Avropa və Xarici İşlər Nazirliyinə ünvanlanmış etiraz notası qarşı tərəfə təqdim olunub.**

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüş zamanı, Fransa hökumətinin zəruri cavab reaksiyasının olmaması fonunda Fransanın müxtəlif siyasi qüvvələri tərəfindən Azərbaycana qarşı açıq böhtan və qərəz əsasında qurulmuş kampaniyanın genişlənərək davam etməsindən dərin narahatlıq ifadə olunub və məktubda əks olunmuş iddialar qətiyyətlə rədd edilib.

(səh.2)

## 202 dərman vasitəsinin qiymətində dəyişiklik olunub

Tarif Şurası daha 149 dərman vasitəsinin qiymətini təsdiq edib



**Dünən Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib və müvafiq qərar qəbul edilib.**

"Şərq" Tarif Şurasının Katibliyinə istinadən xəbər verir ki, iclasda yeni dövlət qeydiyyatına alınan daha 149 dərman vasitəsinin qiyməti təsdiq edilib.

(səh.2)

# Bakı Xankəndi ilə təmaslar qurur

Sadəcə, təmasların qurulduğu şəxsi açıqlamır



**"Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun çıxışını ümumilikdə rəsmi Bakının 2023-cü il strategiyası kimi də qiymətləndirmək olar".**

Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Turan Rzayev deyib. Analitik XİN başçısının "Ermənistanla delimitasiya prosesində 8 Azərbaycan kəndi qaytarılmalıdır.

Bu kəndlərdə azərbaycanlılar yaşayıb və həmin kəndlərin qaytarılması həyata keçirilməlidir" sözlərini bu cür şərh edib...

(səh.3)



## Terrorçular sifarişi İrandan alıblar

Türkiyə təhlükəsizlik qüvvələri 5 terrorçunu saxlayıb

**Vanda hücuma hazırlaşan terror təşkilatı PKK-nın 5 üzvünün sursat və partlayıcılarla birlikdə tutulub.**

Trend-in məlumatına görə, bu barədə dünən Türkiyənin daxili işlər naziri Süleyman Soylu İstanbul Böyükşəhər Bələdiyyəsinə qarşı aparılan terror istintaqı ilə bağlı keçirilən mətbuat konfransında bildirib. O qeyd edib ki, terrorçular sifarişi İrandan alıblar. Vanda uzun müddətdir təhlükəsizlik bölmələri tərəfindən təqib edilən bir strukturun olduğunu və bu strukturun hərəkətə keçməyə hazır olduğunu bildirən S.Soylu hərəkət əmrinin Van sərhədinin o tayından İranın Kelereş şəhərindən gəldiyini bildirib.

## Vəfat edən olmayıb

90 yeni yoluxma faktı qeydə alınıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 90 yeni yoluxma faktı qeydə alınıb, 131 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

*Azərbaycanda indiyədək ümumilikdə 826 165 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 815 641 nəfər müalicə olunaraq sağalıb, 10 008 nəfər vəfat edib, aktiv xəstə sayı 516 nəfərdir.*

## 30 minə yaxın şəxsə 25 illik staj hədiyyə ediləcək



**"Əmək pensiyaları haqqında" Qanunda 2019-cu ilin əvvəlindən tətbiq olunan dəyişikliyə əsasən fərdi hesabında 01.01.2006-cı ildən 01.07.2018-ci ilədək dövr üzrə hər hansı məbləğdə pensiya kapitalı olan pensiya yaşına çatan şəxsə avtomatik 25 il sosial sığorta stajı (pensiya hüququ qazanmaq üçün də minimum staj tələbi 25 ildir) hədiyyə edilir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi xəbər verir ki, həmin şəxsin heç bir stajı olmadıqda belə, o, pensiya hüququ qazanır. Hədiyyə edilən həmin 25 il sığorta stajının 2023-cü ilin əvvəlindən artıq hər il üçün 1 il azaldılması nəzərdə tutulurdu. Təsdiqlənən yeni Qanun 25 il sığorta stajının hədiyyə edilməsi müddətinin 3 il uzadılmasını nəzərdə tutur. Yəni, qeyd edilən 25 il sığorta stajının hər il üçün 1 il azaldılması artıq 2023-cü ildən deyil, 2026-cı ildən tətbiq ediləcək.



## "Sadə ermənilərlə danışmalıyıq"

Zərdüşt Əlizadə: "Azərbaycan hökuməti savaş potensialından istifadə etdiyi kimi, barış potensialından da istifadə etməlidir"

(səh.4)



## Güclənib hər təxribata qarşı hazır olmalıyıq

Azərbaycan-Türkiyə koalisiyasına qarşı Ermənistan-İran koalisiyası formalaşır

(səh.3)




# Bakıda 5 saylı DOST Mərkəzinin açılışı olub

## Prezident İlham Əliyev mərasimdə iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Xətai rayonunda yerləşən 5 saylı DOST Mərkəzinin açılışında iştirak edib.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Bakı şəhəri, Xətai rayonu, Mehdi Mehdizadə küçəsi, 31 ünvanında yerləşən dördmərtəbəli mərkəzin ümumi sahəsi 4405 kvadratmetrdir. Mərkəz modern və konstruktiv üslubda layihələndirilib, mühəndis sistemləri baxımından ən yüksək tələblərə cavab verir.

Mərkəzdə 120 nəfərə yaxın işçi heyəti çalışacaq və "Könüllü DOST" proqramı üzrə 50 nəfər könüllü fəaliyyət göstərəcək. Burada gün ərzində 650-700 vətəndaşa xidmətin göstərilməsi nəzərdə tutulur.

Qeyd edək ki, sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələnin başlanmasını şərtləndirən, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək istiqamətində əhəmiyyətli dəyişikliyə səbəb olan DOST konsepsiyası ölkəmizdə həyata keçirilən institusional-struktur islahatlarının mühüm tərkib hissəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST Agentliyi bu gün məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 12 istiqamət üzrə 153 xidmət göstərir. Bu günədək istifadəyə verilmiş 5 DOST Mərkəzində ümumilikdə 1 milyon 250 mindən çox şəxsə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi 98,2 faiz təşkil edir.

Azərbaycan Prezidentinin idarəçilik fəlsəfəsi ilk növbədə sosial dövlət strategiyasına söykənir. Postmüharibə dövründə də sosial sahədə, o cümlədən DOST mərkəzləri vasitəsilə həyata keçirilən tədbirlər dövlətin sosialyönümlü siyasətini nümayiş etdirir.

Beləliklə, istifadəyə verilən növbəti DOST Mərkəzi sosial xidmətlər sahəsində daha böyük ərazini və daha çox əhalini əhatə etməklə keyfiyyətli xidmətin coğrafiyasının genişlənməsinə şərait yaradacaq.

# Bakı Fransaya nota verdi

## Azərbaycana qarşı açıq böhtan və qərəz əsasında qurulmuş kampaniyanın genişlənərək davam etməsindən dərin narahatlıq ifadə olunub



**28 dekabr 2022-ci il tarixində Fransa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb və Fransanın Avropa və Xarici İşlər Nazirliyinə ünvanlanmış etiraz notası qarşı tərəfə təqdim olunub.**

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüş zamanı, Fransa hökumətinin zəruri cavab reaksiyasının olmaması fonunda Fransanın müxtəlif siyasi qüvvələri tərəfindən Azərbaycana qarşı açıq böhtan və qərəz əsasında qurulmuş kampaniyanın genişlənərək davam etməsindən dərin narahatlıq ifadə olunub və məktubda əks olunmuş iddialar qətiyyətlə rədd edilib.

Bu çərçivədə, bir neçə gün əvvəl Fransa parlamentində təmsil olunan siyasi qüvvələrin rəhbərləri adından Fransa prezidentinə ünvanlanmış məktubda Azərbaycana qarşı əsassız ittihamlar səsləndirilməsinin, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qəsd mahiyyətində addımlar atılmasına çağırış edilməsinin qəbuledilməz olduğu bildirilib.

Sözügedən məktubun Fransa Parlamentinin hər iki palatasının Azərbaycana qarşı əsassız ittihamlarla dolu qətnamələrinin qəbul edilməsinin də daxil olduğu, məqsədyönlü və sistemli şəkildə həyata keçirilən silsilə xarakterli anti-Azərbaycan tədbirləri və bəyanatlarının davamı olduğu vurğulanıb.

Azərbaycan tərəfi Fransa hökuməti tərəfindən Azərbaycana qarşı aparılan kampaniyanın dərhal dayandırılması məqsədilə müvafiq tədbirlərin görülməsinin zəruri olduğunu diqqətə çatdırıb.

# Fuad Nəcəfli xidmət şəraiti ilə maraqlanıb

## Prezidentin səlahiyyətli nümayəndəsi Əlahiddə Ümumqoşun Orduda olub

### "Naxçıvanın müdafiə potensialının gücləndirilməsi üçün addımlar atılacaq"



**Dekabrın 28-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Əlahiddə Ümumqoşun Orduda olub, xidmət şəraiti ilə maraqlanıb.**

"Şərq" xəbər verir ki, əvvəlcə Naxçıvan Qarnizonu Qoşunlarının Mərkəzi Qərargahına gələn Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinə müasir avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilmiş Döyüşü İdarəetmə Mərkəzi və Mərkəzi Komanda Məntəqəsinin fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, Döyüşü İdarəetmə Mərkəzi Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələri arasında qarşılıqlı əlaqənin təmin edilməsində, qarşıya qoyulan döyüş tapşırıqlarının operativ icrasında mühüm rol oynayır.

Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev muxtar respublikanın etibarlı müdafiəsinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğıdan danışıb, bundan sonra da muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsi və müdafiə potensialının daha da gücləndirilməsi istiqamətində lazımi addımların atılacağını diqqətə çatdırıb.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzi ilə də tanış olan Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə müxtəlif sinif otaqları, simulyasiya mərkəzi və trenajorlar zalı barədə ətraflı məlumat verilib.

Təlim-Tədris Mərkəzində Naxçıvanda ordu quruculuğundan bəhs edən videoçarxa baxış olub.

Sonra Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində olub, qərargah binaları, əsgəri məişət kompleksləri, hərbi xəstəxana, həmçinin ordumuzun arsenalında olan silah-sursat və döyüş texnikaları barədə məlumat alıb.

# Sakinlərin müraciətləri dinlənilib

## "Yerlərdə məmurlar tərəfindən vəzifələrdən sui-istifadə halları var"




**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Kəngərli rayonunda olub, sakinlərlə görüşüb.**

Səlahiyyətli nümayəndə Prezident İlham Əliyevin salamlarını rayon ictimaiyyətinə çatdırıb.

Dövlət başçısının rəhbərliyi ilə Kəngərli rayonunun inkişafı sahəsində görülən işlərdən danışan Fuad Nəcəfli bununla yanaşı yerlərdə məmurlar tərəfindən vəzifələrdən sui-istifadə hallarının olduğunu, vətəndaşların hüquqlarının pozulduğunu, sahibkarlıq fəaliyyəti üçün manelərin yaradıldığını qeyd edib.

Sonra sakinlərin müraciətləri dinlənilib.

F.Nəcəfli görüşdə iştirak edən bütün sakinlərə təşəkkürünü bildirib, problemlərin qısa müddətdə aid dövlət qurumları ilə birlikdə araşdırılıb həll olunacağını qeyd edib.

# 202 dərman vasitəsinin qiymətində dəyişiklik olunub

## Tarif Şurası daha 149 dərman vasitəsinin qiymətini təsdiq edib



**Dünən Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib və müvafiq qərar qəbul edilib.**

"Şərq" Tarif Şurasının Katibliyinə istinadən xəbər verir ki, iclasda yeni dövlət qeydiyyatına alınan daha 149 dərman vasitəsinin qiyməti təsdiq edilib.

Eyni zamanda, etibarlı təchizatın təmin olunması məqsədilə Səhiyyə Nazirliyinin rəyi nəzərə alınmaqla 202 dərman vasitəsinin qiymətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli Qərarı ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 7.1-ci bəndinə və Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2015-ci il 21 iyul tarixli Qərarı ilə təsdiq edilmiş "Dərman vasitələrinin qiymətlərinin hesablanması üsullarına dair Təlimat"ın 4.1-ci bəndinə uyğun olaraq dəyişikliklər olunub.

Bununla da, ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla, qiyməti təsdiq edilmiş dərman vasitələrinin sayı 13 642 təşkil edir və onların tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) "Dərman vasitələri" bölməsində (http://tariff.gov.az/documents/DVA.pdf) yerləşdirilib.

*Qərarla Tarif (qiymət) Şurasının rəsmi saytının (www.tariff.gov.az) "Şuranın qərarları" bölməsində tanış olmaq olar.*

# Xankəndidən Ermənistana xəstə aparıldı

## Azərbaycan BQXK-nın müraciətinə müsbət cavab verib



**Dekabrın 28-də Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) üç nəfər xəstənin həkim və tibb bacısının müşayiəti ilə Xankəndidən Ermənistana aparılması üçün Azərbaycan tərəfinə müraciət edib.**

Müraciətdə xəstələri 2 nəfər ailə üzvünün və 2 nəfər tibb heyətinin müşayiət edəcəyi, onlardan əlavə BQXK-yə məxsus 3 ədəd "Toyota Land Cruiser" markalı avtomobildən ibarət karvanda 3 nəfər sürücü və 1 nəfər BQXK nümayəndəsinin olacağı bildirilib.

Bu, humanitar məqsədli maşınların keçidi üçün heç bir məhdudiyyətin olmadığını göstərir.

*Qeyd edək ki, avtomobil karvanı bu gün Ermənistandan Xankəndiyə qayıdacaq və qayıdarkən baqaj hissəsində Xankəndi xəstəxanası üçün dərman və tibbi ləvazimatlar daşınacaq.*



# İrəvan-Moskva münasibətləri kəskinləşib

## Artıq Ermənistanın əlində Azərbaycana qarşı istifadə etmək üçün heç bir "siyasi silah" qalmayıb

**Ermənistan təmsilçilərinin Azərbaycan rəsmiləri ilə Rusiyada görüş təklifindən imtina etməsi İrəvan-Moskva münasibətlərini gərginləşdirib. Xüsusən erməni xarici işlər naziri Ararat Mirzoyanın Moskvada XİN rəhbərlərinin üçtərəfli görüşünə səbəbsiz qatılmaması Kremli daha da hiddətləndirib.**

Rusiya XİN başçısı Sergey Lavrov Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla görüşü zamanı İrəvan hökumətinin ünvanına xoşagəlməz ifadələr səsləndirib. Lavrov erməni tərəfinin görüşdən diplomatik üsullarla imtina etmədiyini vurğulayıb. Mirzoyan isə buna cavab olaraq Lavrovu yalan danışmaqda ittiham edib. Eyni zamanda Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Rusiyanın Ermənistanı Zəngəzur dəhlizini açmağa və İttifaq Dövlətinə daxil olmağa məcbur etdiyini bildirmişdi. Kreml sözçüsü Dmitri Peskov isə bunu yalan və təxribat adlandırmışdı. Erməni politoloq Benyamin Poqosyan Rusiya və Ermənistan XİN başçılarının bir-birinin ünvanına səsləndirdiyi ittihamlar haqda danışarkən deyib ki, İrəvan indiki şəraitdə Qarabağda ermənilərin yaşamasını istəyirsə, daha diqqətli olmalı və Rusiya rəhbərliyinə qarşı sərt bəyanatlardan çəkinməlidir. Onun sözlərinə görə, diplomatik praktikada bir ölkənin xarici işlər nazirinin digər ölkənin XİN başçısını açıq şəkildə yalan danışmaqda ittiham etməsi çox nadir rast gəlinən haldır: "Bu hal hətta dost olmayan ölkələrin XİN başçıları arasında baş vermir, nəinki "strateji müttəfiqlər". Səbəbləri deyə bilmərəm, amma qəribə və qeyri-adi şeyin baş verdiyi hiss olunur". Politoloq qeyd edib ki, İrəvan Qarabağda hər şeyin Rusiyadan asılı olduğunu bilməlidir: "Ermənilər rus sülhməramlılar Qarabağda olduğu müddətdə orda yaşayacaqlar. Xankəndidə bu yaxınlarda baş tutan çoxminli mitinqin səbəbi rus sülhməramlıların orada iştirakıdır. Rus sülhməramlılar olmasa, mitinq də olmayacaqdı". Onun sözlərinə görə, rus sülhməramlılar bu gün çıxmağa başlasalar, onlardan qabaq ermənilər o əraziləri tərk edəcək.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri Fərid Şəfiyev də deyib ki, Ermənistanla Rusiya arasında artıq taktiki yox, strateji problemlər var. Onun sözlərinə görə, Ermənistan düşünürdü ki, onların işğalçılıq siyasəti birmənalı olaraq Rusiya tərəfindən dəstəklənəcək: "Ermənistanla Rusiya arasında fundamental fikir ayrılığı davam edəcək. Bu fundamental problem ondan ibarətdir ki, Ermənistan gözləyir ki, Qərb onların iqtisadi problemlərini həll etsin, Rusiya da işğalçılıq siyasətini dəstəkləsin".

**Rusiyanın gözləntisi o idi ki, baş nazir Nikol Paşinyan Moskvanın bütün təlimatlarına qeyd-şərtsiz əməl etsin**

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında deyib ki, İrəvan-Moskva münasibətlərinin kəskinləşməsinin əsas səbəbi Ermənistanın tutduğu mövqedir. Professorun sözlərinə görə, Kremlin gözləntisi o idi ki, baş nazir Nikol Paşinyan Moskvanın bütün təlimatlarına qeyd-şərtsiz əməl etsin:** "Amma Paşinyanı hakimiyyətə gətirənlərin istəkləri tamamilə fərqlidir. ABŞ Cənubi Qafqazda möhkəmlənmək istəyir. İran da öz mövqelərini qorumağa çalışır. Türkiyə isə birmənalı Azərbaycanın maraqlarına uyğun hərəkət edir. Fransa isə Ermənistanın yanındadır. Cənubi Qafqazda dominant olmaq, siyasi aktor olmaq uğrunda açıq "döyüş" gedir. Hazırda Rusiya ABŞ və Avropa tərəfindən təklənmiş vəziyyətdədir. ABŞ-Avropa dueti qarşısında Rusiya-İran ikilisi çox zəifdir. Çünki həm Rusiyaya, həm də İrana qarşı güclü sanksiyalar mövcuddur. Moskvanın bölgədə, o cümlədən Ermənistanda hakimiyyət maraqlarının olduğu sirr deyil. Rusiya istədiyini almayana kimi əl çəkməyəcək və indiki İrəvan hökuməti ilə "mübarizəsini" aparacaq. Lakin regionda özünə ikinci cəbhəni də açmaq istəmir, çünki bu, indiki məqamda Kreml üçün əlavə basqı və yük anlamına gəlir. O baxımdan çalışır ki, müəyyən təzyiqlərlə Ermənistan hakimiyyətini nəzarəti altında saxlasın".

*C.Nuriyev vurğulayıb ki, rəsmi Bakı İrəvan-Moskva gərginliyindən çox uğurla yararlanır:* "Ceyhun Bayramovun rusiyalı həmkarı ilə görüşü Azərbaycanın maraqları kontekstində keçdi. İlk dəfə olaraq Rusiya birmənalı şəkildə Ermənistanı bu və ya digər məsələlərdə Azərbaycanın əleyhinə çıxmağa imkan vermədi. Prezident V.Putin qısa görüş vaxtı ancaq ümumi şəkildə Azərbaycan-Ermənistan problemlərindən danışdı. Həmçinin Kreml rəhbəri "Dağlıq Qarabağ" sözü işlətmədi. Halbuki Paşinyan dəsmal götürüb ağlayırdı ki, guya, "Azərbaycan yolu bağlayıb, ermənilər fəlakət içindədir" və s. Artıq Ermənistanın əlində Azərbaycana qarşı istifadə etmək üçün heç bir "siyasi silah" qalmayıb".

**İsmayıl Qocayev**

# Bakı Xankəndi ilə təmaslar qurur

## Sadəcə, təmasların qurulduğu şəxsi açıqlamır



“İndiki mərhələdə bu, düzgün addımdır. 2023-cü ildə bu məsələnin detallarının ortaya çıxacağı, hətta lazımi siyasi şərait formalaşacağı təqdirdə Bakı təmasların qurulduğu şəxsi də açıqlaya bilər”

**“Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun çıxışını ümumilikdə rəsmi Bakının 2023-cü il strategiyası kimi də qiymətləndirmək olar”. Bu sözləri ”Şərq”ə açıqlamasında siyasi şərhçi Turan Rzayev deyib. Analitik XİN başçısının ”Ermənistanla delimitasiya prosesində 8 Azərbaycan kəndi qaytarılmalıdır.**

Bu kəndlərdə azərbaycanlılar yaşayıb və həmin kəndlərin qaytarılması həyata keçirilməlidir” sözlərini bu cür şərh edib: ”Nazirin qeyd etdiyi 8 Azərbaycan kəndi, Qazaxın işğal altında olan 7 kəndi və Naxçıvanın işğal olunmuş Kərki kəndidir. Prezident İlham Əliyev də dekabrın 23-də Fransa rəhbəri Emmanuel Makronla telefon danışığı zamanı Ermənistanın Azərbaycana məxsus 8 kəndi hələ də işğal altında saxladığını qeyd etmişdi. Həm ölkə başçısının, həm də xarici işlər nazirinin bu məsələni dilə gətirməsi rəsmi Bakının işğal altında olan 8 kəndi unutmadığını və 2023-cü il üçün strateji hədəf olaraq qarşıya qoyulduğunu göstərir. Ceyhun Bayramovun mətbuat konfransında toxunduğu məqamlardan biri də son zamanlar xüsusilə aktuallaşan, özünü separatçıların lideri olaraq görən erməni milyarder Ruben Vardanyanla bağlı oldu. Nazir açıq şəkildə bildirdi ki, Azərbaycanın Ruben Vardanyanla təmasları heç vaxt olmayacaq. Lakin bu o demək deyil ki, Bakı Xankəndi ilə təmaslardan imtina edib. Ümumiyyətlə, belə təmaslar olmalıdır və Xankəndi erməniləri adından təmas qurulacaq şəxsi rəsmi Bakı özü müəyyənləşdirməlidir. Nazirin sözlərindən belə bir nəticəyə gəlmək olar ki, Bakı Xankəndi ilə təmaslar qurur, sadəcə, təmasların qurulduğu şəxsi açıqlamır. İndiki mərhələdə bu, düzgün addımdır. 2023-cü ildə bu məsələnin detallarının ortaya çıxacağı, hətta lazımi siyasi şərait formalaşacağı təqdirdə Bakı təmasların qurulduğu şəxsi də açıqlaya bilər”.

Ekspertə görə, C.Bayramovun çıxışında diqqətçəkən məqamlardan biri də onun ”Ermənistanla sülh müqaviləsi, delimitasiya və kommunikasiyaların açılması bir-birindən ayrı proseslərdir” sözləri oldu: ”Prinsip etibarilə bu, doğrudur. Belə ki, sırası ilə öncə iki ölkə arasında delimitasiya və demarkasiya prosesi həll edilməli, daha sonra yekun sülh müqaviləsi imzalanmalıdır. Yekunda isə kommunikasiyaların açılması prosesi getməlidir. Bütün hallarda iki ölkə arasında delimitasiya və demarkasiya prosesi həll edilmədən sülh müqaviləsindən danışmaq əbəsdir. Ermənistan hazırda həm danışıqlar prosesini ləngidir, həm də 10 noyabr bəyanatının tələblərini icra etmir. Halbuki rəsmi İrəvan 10 noyabr bəyanatına görə öhdəliklər götürüb. Yəni indiki məqamda Ermənistanın danışıqlar prosesini dəyişmək cəhdi və ya prosesi ləngitməsi ciddi nəticələr doğura bilər. Görünən odur ki, Rusiya tərəfi Azərbaycanın bu istiqamətdə tələblərinin qarşısını ”erməni silahlılarının çıxarılması Ermənistanın öhdəliyidir” deyərək almağa çalışır”.

**T.Rzayev vurğulayıb ki, Rusiya sülhməramlıların bölgədə qalmasında maraqlıdır:** ”Çünki erməni silahlı birləşmələrinin regionda qalması Kremlin Bakıya qarşı təzyiq etməsinə imkan verir. Silahlı dəstələrin silah-sursatla təmin edilməsinə, döyüş postları qurmasına şərait yaradan da məhz sülhməramlılardır. 4-cü bəndin icrası öhdəliyini İrəvanın üzərinə qoyması isə məsuliyyətdən yayınmaq cəhdidir.

C.Bayramov bu məsələ ilə bağlı ”Azərbaycan üçün bu, qəbuledilməzdir. Danışıqlar zamanı biz bu məsələləri davamlı şəkildə müzakirə edirik” dedi. Yəni Azərbaycan bir müddət bu məsələnin həlli istiqamətində danışıqlar apara bilər, lakin danışıqların uzanması və nəticəsiz olması antiterror əməliyyatının başlanmasına gətirib çıxara bilər. Nəticə etibarilə, 2023-cü ildə kiçikmiqyaslı atışmalar və gözdağı xarakterli antiterror əməliyyatının şahidi ola bilərik”.

**İsmayıl**





# "Media Menecmenti" təlim proqramının ikinci modulu keçirilib

**Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə 3 moduldan ibarət olan ”Media Menecmenti” təlim proqramının ikinci modulu keçirilib.**

Bu barədə ”Şərq”ə MEDİA-dan məlumat verilib.

”Onlayn media menecmenti” mövzusunda keçirilən ikinci modulda Litvanın Baş nazirinin mədəniyyət üzrə ictimai müşaviri, inkişaf və innovasiyaya verdiyi töhfəyə görə iki dəfə regionun ən yaxşı marketinq direktorlarından biri seçilmiş Ornela Ramasauskaite çıxış edib.

O, iştirakçılara ”Onlayn media subyektlərinin idarə olunması: ənənəvi və müasir dövrdə üsullar və alətlər”, ”Qlobal rəqəmsal tendensiyalar və proqnozlar”, ”Funksional və istifadəçi mərkəzli platformanın inkişafı, reklamların cəlb olunması”, ”Rəqəmsal trendlər” və s. kimi mövzularda təlim keçib, qeyd olunan istiqamətlərdə geniş fikir mübadiləsi aparılıb.

Dekabrın 29-na qədər 60-dan çox media menecerinin iştirakı ilə davam edəcək ”Media Menecmenti” təlim proqramının əsas məqsədi ənənəvi və rəqəmsal media ilə is?ləyərək daha keyfiyyətli məzmunun yaradılmasına, jurnalistika sahəsində yaranan yeni imkanların və mediada yeni tendensiyaların öyrənilməsinə, rəqəmsal media sahəsində peşəkar vərdişlərin inkişaf etdirilməsinə töhfə verilməsidir.

**Aygün**

# Yuxarıdan göstəriş gözləyirlər

## Dövlət qurumları nəinki müraciətlərə, heç rəsmi məktublara cavab vermir



**Parlamentin ötən gün keçirilən iclasında bir neçə deputat dövlət qurumlarından giley-güzar ediblər. Çıxış edən millət vəkilləri əksər qurumların, nazirlik və komitələrin deputatların müraciətlərinə, seçicilərlə bağlı gündəmə gətirdikləri problemlərə etinasız yanaşdıqlarını vurğulayıblar.**

Millət vəkili Ceyhun Məmmədov dövlət idarələrinə yazılan məktublara şablon cavab verildiyini deyib. Bildirib ki, müraciətləri çox hallarda rəhbərlik yox, hansısa sektor müdiri cavablayır.

**Deputat Tahir Kərimli də həmkarının fikrini dəstəkləyib. Parlament üzvü deyib ki, əksər qurumlar deputatları yola verirlər:** ”Hansısa şöbənin rəisinin müavini səviyyəsində cavab gəlir. Cavaba baxanda görürsən ki, məsələ araşdırılmayıb, ümumi, şablon cavab verilib. Daxili İşlər Nazirliyinə edilən müraciətlərimizə operativ cavab verilir. Özü də şəxsən rəhbərlik tərəfindən cavablanır. Məgər digər qurumlar DİN-dən artıqdır?”.

**Deputat Əminə Ağazadə də sorğuların cavabsız qalmasından gileylənib:** ”Hər kiçik məsələ üçün qurumlara müraciət etmirik ki... Vətəndaşların müraciətləri əsasında, ciddi problemlərlə bağlı dövlət orqanlarına sorğular göndəririk. Əfsuslar olsun ki, cavab ala bilmirik”.

**Deputatların gündəmə gətirdiyi məsələni ”Şərq”ə dəyərləndirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) vitse-prezidenti, professor Məhərrəm Zülfüqarlı deyib ki, dövlət qurumları nəinki müraciətlərə, heç rəsmi məktublara da cavab vermirlər.** Ekspert vurğulayıb ki, bir müddət əvvəl kollektiv imza ilə ”Azərbaycan tarixi” fənninin azaldılmasına, yəni 120 saatdan 60 saata endirilməsinə etiraz olaraq Təhsil Nazirliyinə rəsmi müraciət ediblər. Müraciətdə bildirilib ki, 44 günlük Vətən müharibəsindən sonra saatlar artmalı, bu fənnin tədrisi və təbliğat daha da gücləndirilməlidir: ”Kollektiv imza ilə göndərilən məktuba nazir və ya onun müavini, şöbə müdirinin müavini səviyyəsində cavab gəldi. Məktubda da yalandan qeyd edildi ki, guya, bu məsələ universitetlərin öz səlahiyyətlərindədir. Həmin fəndən təhsil kreditini Nazirlik müəyyən etdiyi üçün universitet dərs saatını daxili qərarı ilə artıra bilməz. Universitet Təhsil Nazirliyinin müəyyən etdiyi həddə uyğun olaraq dərs saatlarını tənzimləyir. Bu onu göstərir ki, strateji fənn olan ”Azərbaycan tarixi”ndən nazirlərin və onun müavinlərinin ümumiyyətlə xəbəri yoxdur. Bizim məktuba qurumda yüzüncü dərəcəli adam cavab verdi və təbii ki, problem həll olunmadı. O baxımdan deputatların müraciətlərinin cavabsız qalması da faktdır. Əgər hansısa deputatın müraciətinə müsbət cavab verilirsə, görünür, o da həmin millət vəkilinin şəxsi nüfuzundan asılıdır. Nüfuzsuz deputatı isə ümumiyyətlə saymırlar”.

**M.Zülfüqarlı bildirib ki, dövlət qurumlarındakı əksər məmur hətta öz səlahiyyətlərinə uyğun olsa belə icazəsiz hərəkət etməkdən qorxur:** ”Ehtiyat edir ki, birdən səhv edər və səhvinə görə rəhbərlik onu cəzalandırar, işdən xaric edər və s. Ona görə də yuxarıdan göstəriş gözləyirlər. Əgər rəhbərlikdən tapşırıq gələrsə, əmri icra edirlər. Yəni şəxsi təşəbbüsləri ilə, öz səlahiyyətləri çərçivəsində müstəqil fəaliyyət göstərmirlər”.

**İsmayıl Qocayev**




# Azərbaycanda quru sərhədlərin açılması gözlənilmir

## Bu məsələ qonşu ölkələrdəki epidemioloji vəziyyətdən asılı olacaq

**”Çinin ölkəyə gələnlər ilə bağlı karantin qaydalarının yanvarın 8-dən etibarən ləğvi qərarından sonra digər dövlətlərdə də quru sərhədlərin açılması məsələsi gündəmə gəlib. 2023-cü ildə dünyada yoluxma sayının azalması gözlənildiyindən, bu, qlobal ticarətə də təsirsiz ötüşməyəcək”.**

*Bu sözləri millət vəkili Vüqar Bayramov şəxsi feysbuk hesabında paylaşıb.*

Millət vəkilinin sözlərinə görə, Azərbaycanda quru sərhədlərin açılması, eyni zamanda qonşu ölkələrdəki epidemioloji vəziyyətdən asılı olacaq. Çünki qonşu ölkələrdə yoluxma sayı quru sərhədlərin açılmasına təsir edən əsas faktordur: ”Nəzərə alsaq ki, yoluxma sayında azalmalar müşahidə olunsa da, son günlər xüsusən qonşu Rusiyada koronavirusa yoluxanların sayında artımlar var. Bu kontekstdən quru sərhədlərin açılması ilə bağlı qərar birbaşa, xüsusən də quru sərhədi olduğumuz ölkələrdə yoluxma sayından asılıdır.

Təbii ki, quru sərhədlərin açıq olması iqtisadi baxımdan məqsədəuyğundur. Çünki bu, turizmə təsir göstərən əsas faktorlardan biridir. Xüsusən nəzərə alsaq ki, Azərbaycana gələn turistlərin təxminən 70 faizi Azərbaycanın quru sərhədi olan ölkələrdən gəlir. Bu, eyni zamanda Azərbaycan vətəndaşları üçün daha asan qonşu ölkələrə səfər imkanları baxımından da vacibdir. Ona görə quru sərhədlərin açılması iqtisadi baxımdan da əhəmiyyətlidir. Amma iqtisadi məsələ olmaqla yanaşı, təbii ki, qonşu ölkələrdə olan yoluxma sayı və epidemioloji vəziyyətin dəyişməsi bu məsələdə qərarın verilməsində əsas faktor olaraq qalmaqdadır. 2023-cü ildə regionda və qlobal olaraq epidemioloji vəziyyətin yumşalması Azərbaycanda da quru sərhədlərin açılmasını xeyli tezləşdirə bilər”.

**Şəymən**

# Güclənib hər təxribata qarşı hazır olmalıyıq

## Azərbaycan-Türkiyə koalisiyasına qarşı Ermənistan-İran koalisiyası formalaşır



**Belə görünür ki, İran və Ermənistan ekspertləri anti-Azərbaycan təbliğatında qüvvələrini birləşdirmək qərarına gəliblər.**

Bunu təkcə son bir ayda baş verənlər təsdiq etməkdədir. Keçirilən birgə tədbirlər, mediada şifahi və yazılı çıxışlar hər iki ölkənin regionda və dünyada Azərbaycan Respublikasının mövqeyinin durmadan güclənməsindən ciddi narahatlıq keçirdiyini və bu səbəbdən, necə deyərlər, əl-ələ vermək, resursları və imkanları birləşdirmək üçün çalışdıqlarını aydın şəkildə nümayiş etdirir.

Nəticə olaraq, Əhməd Kazımi, Salar Seyfəddini, Ehsan Movəhhediyan kimi İran ekspertləri ilə Vardan Voskanyan, Armen İsraelyan, Janna Vardanyan kimi iranşünas erməni politoloqlarının Azərbaycana qarşı eyni mövqedən çıxış etdiyi, az qala eyni tezisləri və iddiaları səsləndirdiyi göz önündədir.

Başqa sözlə, özünü ”İslam Respublikası” adlandıran İran bütün digər sahələrdə olduğu kimi, ekspertlər səviyyəsində də Ermənistana dəstəyini əsirgəmir. İranın rəsmi və qeyri-rəsmi mediası ölkə ekspertlərinin anti-Azərbaycan çıxışlarına geniş yer ayırdığı kimi, Ermənistan ekspertlərinin Azərbaycan əleyhinə təbliğatına da səxavətlə imkan yaradır, xüsusən fars dilini bilən erməni iranşünaslara hər fürsətdə meydan verir.

**Məsələni ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Turab Rzayev vurğulayıb ki, bəhs olunan ekspertlərin iki kateqoriyanı təmsil etdiyi görünür:** ”Bunların bir qrupu dövlətlə gizli əlaqədə olan şəxslərdir. Yəni İran dövlətin deyə bilmədiklərini və fikirlərini ifadə edirlər. Digər bir qismi isə daha çox farsşovinist düşüncəli şəxslərdir. Amma onlar da ”SEPAH” içərisində və dövlətin fərqli vəzifələrində olan paniranist qüvvələrlə əlbirdirlər. Bəzən bu qüvvələr dərin dövlətin istəyinin əleyhinə olaraq, Güneydəki türklərlə bağlı da provokativ yazılar dərc edirlər. Sözügedən ”ekspertlərin” hamısına mərkəzdən komanda gəlib ki, aktiv şəkildə anti-Azərbaycan siyasətinə dəstək versinlər. Həmin şəxslərin bəziləri çox irəli gedərək, Ermənistanla ittifaqın tərəfdarı kimi çıxış edirlər. Onlar açıq şəkildə ”Biz Ermənistanın işinə qarışa bilmərik. Ancaq onlar bizimlə müttəfiq olmaq istəyirlərsə, razıyıq” fikirlərini səsləndirirlər. Bu əslində İranın mövqeyinin çatdırılmasıdır. Yoxsa hansısa ekspert və ya jurnalist İranın hansı ölkə ilə müttəfiq olacağını müəyyən edə bilməz.

Hətta onlar ”Ermənistan bizimlə hərbi baxımdan müttəfiq olmağa hazır deyilsə belə, biz İranın bütün sonuncu nailiyyətlərini onlarla bölüşməyə hazırıq” deyirlər. Burada söhbət dronlardan, raket sistemlərindən və İran istehsalı olan digər silahlardan gedir. Biz İran tərəfindən Ermənistana toplam 600 ədəd raketin ixrac olunduğunu görmüşük. Bundan əlavə İrandan Ermənistana Laçın dəhlizindən istifadə etməklə 12 nəfərlik xüsusi texniki təxribatçı dəstə gəlib. Böyük ehtimalla onların sözügedən raket sistemlərinin fəaliyyəti ilə bağlı təlim vermələri planlaşdırılıb”.

**T.Rzayevin sözlərinə görə, Azərbaycan-Türkiyə koalisiyasına qarşı Ermənistan-İran koalisiyası formalaşır:** ”Əslində ortada yeni olan Azərbaycan-Türkiyə ittifaqıdır. Çünki İran-Ermənistan ittifaqı 30 ildir, fəaliyyət göstərir. Bu ittifaqın xarici dayaqları da var. Onlar Fransa, Avropa İttifaqı, Yunanıstandan açıq dəstək alırlar. Müəyyən qüvvələr isə Hindistan və Çin üzərindən silah göndərərək gizli yardım edirlər. Azərbaycan buna qarşı daxili təhlükəsizliyini, milli ordusunu gücləndirməli, ittifaqda olduğu ölkələrlə münasibətləri daha da irəliyə daşımalı və İranla Ermənistanın zəif nöqtələrini taparaq onlara qarşı adekvat cavab addımları atmalıdır”.

**Nihat Müzəffər**

# Səfirlərin qarşısında konkret hədəflər qoyulmalıdır

## Laçın yolunda aksiyamızla bağlı ermənilər bizə qarşı informasiya savaşını genişləndirib



**”Ermənistanın Yunanıstan, Yunan Kipri və Albaniyadakı səfirinin həmin ölkənin yerli mətbuatında Azərbaycan əleyhinə geniş məqaləsini erməni saytlarından birində oxudum. Yalan və iftira üzərində qurulmuş yazı idi”.**

*Bu sözləri ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, belə yazıların iftira və yalan olduğunu biz bilirik, ancaq ”məqaləni” oxuyanlar fərqli fikirdə olacaqlar:* ”Son aylarda Azərbaycanın Qərb ölkələrindəki səfirlərindən hər hansı birinin çalışdığı ölkənin mətbuatında Azərbaycan həqiqətlərini əks etdirən məqaləsini xatırlamıram. Halbuki Laçın yolunda aksiyamızla bağlı qarşı tərəf bizə qarşı informasiya savaşını genişləndirib. Fransaya yeni təyin olunan səfir Leyla Abdullayeva çalışdığı ölkənin rəsmiləri, deputatları və siyasətçiləri ilə mübarizə aparır, fikirlərini səhifəsində paylaşır. Leyla Abdullayeva keçmişdə Xarici İşlər Nazirliyinin mətbuat katibi olduğundan onun dezinformasiya şəbəkəsi ilə mübarizə təcrübəsi var. Təəssüf ki, eyni sözləri Qərb ölkələrindəki digər səfirlərimiz barədə söyləmək çətindir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında diplomatik təmsilçiliklərin sayının 89-a çatdığını bildirdi. Təqdir olunası haldır, sadəcə, işin keyfiyyətinin artırılmasına ehtiyac var. Fikrimcə, səfirlərimiz qarşısında konkret hədəflər qoyulmalıdır. Məsələn, hər səfirimiz hər həftə neçə yerli deputat, ictimaiyyətdə tanınan jurnalist və ictimaiyyət nümayəndəsi ilə görüşdüyü, fikir mübadiləsi apardığı, o cümlədən nə qədər məqaləsi yayımladığı barədə Bakıya hesabat göndərməlidir”.

**İsmayıl**



# "Sadə ermənilərlə danışmalıyıq"

## Zərdüşt Əlizadə: "Azərbaycan hökuməti savaş potensialından istifadə etdiyi kimi, barış potensialından da istifadə etməlidir"

**"Şərq" tanınmış politoloq Zərdüşt Əlizadə ilə ölkə gündəmini müzakirə edib.**

Söhbəti təqdim edirik.

**- Öncə cənub qonşumuzdan başlayaq. Bir müddət öncə İran dövlət kanalları və rəsmiləri Azərbaycan əleyhinə bəyanatlar verdilər, "qulağımızın dibində" hərbi təlimlər keçirdilər. Molla rejimi niyə və nədən narahatdır?**

- İran daha təlim keçirmir. O təlimdən sonra Ali rəhbərin beynəlxalq məsələlər üzrə müşaviri, doktor Əliəkbər Vilayəti dedi ki, Azərbaycan xalqı gözümüzün nurudur. Bu sözdən sonra hesab etmək olar ki, gərginlik sovuşdu.

**- Ötən günlərdə Qarabağdakı erməni separatçılarına təlim keçməyə gedən 12 nəfər İran xüsusi təyinatlısı saxlanılıb. Buna nə ad verək?**

- Həmin təlimçilərlə bağlı qiymətləndirmə aparmalıyıq. Onların hərbi gücü nədən ibarətdir? 12 nəfərdirlər. Lap gəlib, ermənilərə təlim keçsinlər. 12 təlimçi 200 separatçıya təlim keçsin. Qarabağda 2 min 500 erməni silahlısı var. Qoy, onların arasında 200-ü təlim keçsin, döyüş qabiliyyətini artırsın. Bunun hərbi balansa təsiri varmı? Qarabağda 50 minlik ordumuz var, onlar qüvvələr nisbətinə təsir edə bilməyəcəklər. Bu mənada narahatlığa ehtiyac yoxdur.

**- Millət vəkili Qüdrət Həsənquliyev təklif irəli sürmüşdü ki, ölkəmizin adını dəyişib, Şimali Azərbaycan qoyaq. Bu, realdırmı?**

- Bu təklifin əhəmiyyəti yoxdur. "Mən də varam"dan başqa bir şey deyil. İranın dağılacağı, güneyin İrandan qopub, quzeyə birləşəcəyinə dair "peyğəmbərlik" edənlər var. Belə adamlara sual verirəm: - İran dövlətinin neçə yaşı var? Şahın dövründə İranın 2 min 500 illiyini qeyd etdilər. Ondan sonra inqilab oldu. İran nüfuzunu Yəmən, İraq, Suriya və başqa ölkələrə yaya bildi, amma son illər daxildəki qüsurları aradan qaldıra bilmədilər. Bu qüsurların ucbatından ölkə daxilində gərginlik yarandı. Həm də etiraf edək ki, Amerikanın tətbiq etdiyi sanksiyalar da İranın neft və qaza söykənən layihələrini çökdürdü. İran iqtisadiyyatında problemlər yarandı. Əhali artımı baş verdi, iqtisadiyyat zəiflədi. Üstəgəl, rejimin bəzi mənasız qadağaları var. Bunlar kommunistlərin qadağalarına bənzəyir. O vaxt kommunistlərə deyirdilər ki, qadağaları aradan qaldırın. Etmədilər. Buna görə də dövr onları götürüb tarixin zibilliyinə atdı. İran rejimi də qadağalar tətbiq edir və bu da camaatı qəzəbləndirir. İnsanlar küçələrə axın edib, aksiya keçirirlər.

**- Fikirlərinizdə İrana loyallıq elementləri sezilir...**

- İrana münasibətim müsbətdir. Din, qan, mədəniyyət baxımından bizə yaxın dövlətdir. Eyni zamanda bu dövlətin mənasız yasaqlarını qəbul etmirəm. Qadınlardan zorla baş örtüyü tələb edirlər. Mənasızdır. İslam baş örtüyü ilə deyil, insanın qəlbinin saflığı ilə ölçülür.

**- Məsələn?**

- Mehribanlıq və inteqrasiya yolu. Sərhədlər şəffafdır, gediş-gəliş sərbəstdir. Cənubi Azərbaycanda yaşayan azərbaycanlılarla əlaqə qurmaq istəyirsinizsə, ticarət, qohumluq əlaqəsi yaradın. İranla dost olun, sərhədləri açsın, vizanı götürsün. Bir neçə dəfə bu ölkəyə gedib-gəlmişəm. Gedin Təbriz, Qəzvin, Urmiya, Ərzincanda gəzin, dolaşın. Azərbaycanlılarla danışın, müştərək iş qurun. Bunun üçün dövləti dağıtmaq fikrindən uzaq durun, xeyir gətirməz. İranın dağılmasını hansı ölkə istəyir? ABŞ. Amerika müsəlman xalqlarının dostudur? O cümlədən, Azərbaycanın dostudur? Xeyr. ABŞ istəyir, İran da onlara tabe olsun. Səudiyyə Ərəbistanı kimi onların diktəsini qəbul etsin. Səudiyyənin ABŞ yanında hörməti onun neft və qazının həcminə bərabərdir.

**- İran Qafanda konsulluq yaratdı, Azərbaycan isə İsraildə səfirlik açdı. Bu siyasi gedişin qlobal "kod"larını açardınız.**

- Azərbaycan hakimiyyəti rəsmi Tehranın İsraillə həssas münasibətini nəzərə alaraq, rəsmi Təl-Əvivlə iqtisadi, ticari əlaqələr qurmuşdu, amma diplomatik münasibətlər formalaşdırmamışdı. Buna rəğmən İsrailin Bakıda səfirliyi fəaliyyət göstərirdi. Azərbaycan dövləti İranın mövqeyini nəzərə alıb, həssaslıq nümayiş etdirirdi. İran isə bu jestə hörmət etmədi və Ermənistana silahlı dəstək verdi, erməni separatçılara təlim keçdi, Azərbaycanı hədələdi. Sonra Qafanda konsulluq açdı. Hərçənd ki, bu konsulluğa ehtiyac yox idi. Çünki orada heç bir İran vətəndaşı yaşamır. Konsulluq o yerdə açılır ki, həmin ərazidə ölkə vətəndaşlarının hansısa ciddi təmsilçiliyi olur. Qafanda isə iranlı yoxdur. Onlar orada konsulluq açıb, bizi hiddətləndirdilər, bununla da mesaj vermək istədilər ki, Qafanı Ermənistan ərazisi kimi tanıyırlar. Onlar bizim siyasətimizə hörmət etmədilər, Azərbaycan hökuməti də gedib, İsraildə səfirlik açdı. Dünya dağılmadı ki?! Sadəcə, münasibətlərə aydınlıq gətirildi. Biz də siqnal ötürdük ki, siz bu cür davam etsəniz, biz də öz addımlarımızı atacağıq. Bizə hörmət etmədilər, biz də hörmət etmədik, vəssalam.

**- Bir yandan İranın ölkəmizə təzyiqi, digər yandan rus sülhməramlıların Azərbaycan toponimlərini tanımamaları, öz missiyalarını ləyaqətlə yerinə yetirməmələri, ərazilərimizdə ekoloji terror törətmələri, sərvətlərimizi talamaları, Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməmələri, Türkiyə-Ermənistan sərhədlərinin açılmasına dair rəsmi İrəvanın çabaları var. Bütün bu prosesdə Türkiyənin yeri və rolu nədən ibarətdir?**

- Türkiyə xırda işlərə baş qoşmur. Rəsmi Ankara strateji olaraq Azərbaycana deyib ki, sənin yanındayam. Biz də heç bir ölkədən ehtiyat etmirik. Bilirik ki, Türkiyə kimi güclü müttəfiqimiz var. Türkiyə regional dövlətdir. NATO ölkəsidir, oturuşmuş dövlətdir. Onun regionda böyük nüfuz sahibi olmasını dostları da, bədxahları da etiraf edir. Türkiyə kimi böyük dövlətin xırda məsələlərə qarışmağa ehtiyacı yoxdur.

**- Niyə sülhməramlılar Azərbaycana qarşı terrorməramlı addımlar atırlar?**

- Onlar Qarabağda qalmaq istəyirlər. Qarabağda qalmaları üçün zəmin və səbəb olmalıdır. Onların qalma səbəbləri Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə təminat verməkdir. Rusların Qarabağda qalmasına ehtiyacın qalmadığını göstərmək üçün bizə barış lazımdır. Erməni xalqı, dövləti və Qarabağın erməni əhalisi ilə barışmalıyıq.

> "Onlara başa salmalıyıq ki, barışığa gəlsələr, vəziyyətləri indikindən dəfələrlə yaxşı olacaq. Vədlər vermək lazımdır"

**- Axı biz dəfələrlə "barış əli" uzatmışıq, əlimizə əl vermirlər...**

- Barışın əsas yolu bundan keçir ki, sadə ermənilərlə danışmalıyıq. Onlara başa salmalıyıq ki, barışığa gəlsələr, vəziyyətləri indikindən dəfələrlə yaxşı olacaq. Vədlər vermək lazımdır.

**- Nə kimi vədlər?**

- Açıq deməliyik ki, sizə bu qədər maaş, müavinət veriləcək. Azərbaycanın pulu çoxdur. Vaxtilə Azərbaycanda yaşamış ermənilərə deyin ki, bu illər ərzində cinayətkar rejimin əsiri idiniz, amma indi Azərbaycan vətəndaşlığını qəbul etsəniz, illər ərzində yığılıb qalan müavinət və ya təqaüdlər özünüzə qaytarılacaq. Azərbaycana qayıdan kimi biz onu sizə ödəyəcəyik. Bu da ermənilər üçün xeyli vəsait edir. Bunu eşidən erməni razılaşacaq. Orada camaat çox kasıbdır. Varlılar da var, amma azdır. Ermənilər yoxsul yaşayırlar. Belə olan halda ermənilər Araikin yaxasından yapışıb deyəcəklər ki, imkan ver, pulumuz gəlsin. Hesab edirəm ki, Azərbaycan hökuməti savaş potensialından istifadə etdiyi kimi, barış potensialından da istifadə etməlidir.

**- Bəs Fransa bizdən nə istəyir?**

- Azərbaycan Fransa Prezidenti Emmanuel Makronun hər sayıqlamasına fikir verməli deyil. Rəsmi Parisin gücü olsaydı, Mərkəzi Afrika ölkələrində öz nüfuzunu qoruyub saxlayardı. Saxlaya bilmədi, bilmir. Mərkəzi Afrika ölkələri onları qovurlar. Fransız əsgərlər oradan qaçırlar. İndi Fransa ordusu gəlib Azərbaycanda nə edə bilər ki? Qoy danışsın da. Makron kimi siyasətçiyə yarım qəpiklik də hörmət etmirəm. Fransanı sevirəm, fransız xalqına hörmətim var. Amma Makrona rəğbətim yoxdur. Nə vaxt xalqın arasına çıxır, camaat şillələyir. Qoy şillələsinlər, qollarına qüvvət.

**- Son günlər ölkə gündəmini zəbt edən məsələlərdən biri də Naxçıvanda və keçmiş "xan" Vasif Talıbov ətrafında baş verən proseslərdir. Həmçinin muxtar vilayətin ləğvi aktuallaşıb...**

- Vasif Talıbov özünü dik aparırdı. O həm xalqı əzirdi, həm də Bakıdakı hakimiyyəti tanımırdı. 1995-ci ildə konstitusiyaya Naxçıvan Muxtar Respublikası "dövlətdir" sözü əlavə olundu. Halbuki dövlət içində dövlət olmaz. Vasif Talıbov da bu sözdən havalandı. İndi ona başa salırlar ki, sən dövlət başçısı deyildin, muxtar respublikanın rəhbəri idin, əndazəni, həddini bil. Bu dövlətin bir başçısı, bir qanunu, bir paytaxtı var. Sən də o qanunlara tabe olmalı idin. Kim əndazəni aşır, onu var-yoxdan çıxarırlar və nəticədə işlər qaydasına düşür.

**- Naxçıvanın muxtariyyəti ləğv oluna bilərmi?**

- Xeyr, Naxçıvanın muxtariyyəti beynəlxalq müqavilələrlə təsbit edilib. Onu Türkiyə, Rusiya və Azərbaycan Respublikasının özü tanıyıb. Muxtariyyəti ləğv etməyəcəklər, amma rəhbərlikdə və strukturda ciddi dəyişikliklər aparılacaq.

**Söhbətləşdi: Ayyət Əhməd**

# Hədəfimiz İrəvandır

## "İlham Əliyevin Qərbi Azərbaycana qayıdışın anonsunu verməsi erməniləri qəfil yaxalayıb"

**Ermənistanın gündəmi son günlər yenə alt-üst olub. Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycan İcmasının üzvü olan bir qrup ziyalı ilə görüşü zamanı səsləndirdiyi fikirlər, verdiyi mesajlar ermənilərin baş nazirindən tutmuş sıravi vətəndaşlarına qədər hər kəsin düşüncəsində, əhvali-ruhiyyəsində həm panika, həm də bədbinlik qarışıq isterika yaradıb.**



Əlisahib Hüseynov: "Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik"

Göründüyü kimi, Ermənistanın gündəmini ölkənin baş naziri, prezidenti və ya siyasi qüvvələri yox, məhz Azərbaycan liderinin verdiyi açıqlamalar formalaşdırır. İlham Əliyevin hər çıxışı Ermənistanda günlərlə davam edən qızğın müzakirələrə səbəb olur. Bu dəfə də eyni reaksiya, eyni nəticə ilə üzləşdik. Ermənistan toplumunu revanşizmə sürükləyən radikal müxalifət də, sülh prosesini qəsdən ləngidən Nikol Paşinyan iqtidarı da bütün diqqətini Qərbi Azərbaycanla bağlı yeni hədəflərimizə cəmləşdirib.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib ki, Ermənistanda hamı danışır, amma heç kim düşünmür. Partiya rəhbəri bildirib ki, İrəvanda Azərbaycan Prezidentinin son fikirlərinə adekvat reaksiya verən, bu fikirlərə fərqli prizmadan yanaşan konstruktiv düşüncəli siyasilər yox dərəcəsindədir:** "Məhz bu səbəbdəndir ki, Ermənistanın hazırkı siyasi elitası Azərbaycanın dövlət başçısının xoşməramlı açıqlamalarını, onun sülhə və dinc qonşuluğa, birgəyaşayışa çağırışlarını misli görünməmiş hikkə ilə, aqressiya ilə qarşılayır. Ancaq Prezident İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycanla bağlı açıqlamaları ilə təkcə yerli auditoriyanı və Qərbi Azərbaycandan olan soydaşlarımızı deyil, həmçinin ermənilərin özlərini də düşünməyə, son 200 ildə erməni terror təşkilatlarının, eləcə də çar Rusiyası və sovet imperiyasının Qərbi Azərbaycandan olan insanlarımızın başına gətirdikləri faciəli hadisələri yenidən gözdən keçirməyə dəvət etdi. Erməniləri narahat edən, xoflandıran, qorxuya salan da məhz budur. Onlar öz qaranlıq keçmişləri ilə üzləşmək, azərbaycanlılara qarşı zaman-zaman törətdikləri vəhşilikləri indi yada salmaq və etiraf etmək istəmirlər. Qərbi azərbaycanlıların faciələri üzərində qurduqları müasir Ermənistan dövlətçiliyinin laxlamasına psixoloji olaraq hazır deyillər. Bu mənada İlham Əliyevin Qərbi Azərbaycana qayıdışın anonsunu verməsi erməniləri qəfil yaxalayıb. Onların aqressiv reaksiyası da məhz bütün bunlardan qaynaqlanır. Azərbaycan Prezidenti sözügedən çıxışında həm bizə, həm ermənilərə, həm də dünya birliyinə yönəlik mühüm mesajlar verdi. Vurğulandı ki, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılmalıdır. Tarix təhrif olunmamalıdır. Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Rəsmi İrəvanın tarixi saxtakarlığı ifşa olunmalıdır. Qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Biz bunu sülh yolu ilə etmək istəyirik. Qayıdış Konsepsiyası hazırlanmalı və sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik".

**Ə.Hüseynov qeyd edib ki, göründüyü kimi Cənab Prezidentin bu tövsiyə və mesajlarında yeni hərbi münaqişələrə hazırlaşmaq əlamətləri yoxdur:** "Dövlət başçısı bildirdi ki, "tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. Amma indi mən onu deyirəm ki, biz Ermənistan ərazisinə, mövcud sərhədlərə göz dikməmişik, onların iddiasında deyilik". Prezident birmənalı olaraq vurğulayır ki, biz Ermənistan ərazisinə, mövcud sərhədlərə göz dikməmişik, onların iddiasında deyilik. Erməni məmurları, siyasətçilər və jurnalistlər arasında Azərbaycan dilini yaxşı bilən şəxslər çoxdur. Heç olmasa, həmin şəxslər kor gözlərini açıb Azərbaycan Prezidentinin həmin çıxışını bir daha diqqətlə oxumalı və başa düşməlidirlər ki, bizim Ermənistanın üzərinə tanklarla, dronlarla, qırıcı təyyarələrlə gəlmək, İrəvana əfsanəvi xüsusi təyinatlılarımızı göndərmək fikrimiz yoxdur. Biz sadəcə sivil qaydada, beynəlxalq hüququn bizə verdiyi imkanlar çərçivəsində hərəkət edərək vaxtilə Zəngəzur mahalında, Zəngibasar mahalında, Göyçə mahalında, İrəvan mahalında yaşamış Qərbi Azərbaycan türklərinin öz yurd yerlərinə qayıtmaq haqqının bərpa edilməsini istəyirik. Hədəfimiz ortadadır və göründüyü kimi bu hədəfimiz kifayət qədər dinc və sülhsevərdir. Ümumiyyətlə, ermənilərin sülhə münasibətində, sülhpərvərlik anlayışında ciddi problemlər var. Ermənilər Azərbaycan liderinin sülh çağırışlarına da düşmən kimi reaksiya verirlər. Aqressiyaya köklənmiş erməni xalqının qarşı tərəfin sülhsevərliyini görməzdən gəlməsini dünya birliyi özü açıb ifşa etməlidir".

**İsmayıl Qocayev**

**Prezidentin Naxçıvan üzrə xüsusi nümayəndəsi Fuad Nəcəfli ötən gün bir qrup ictimaiyyət nümayəndəsini qəbul edib və şikayətlərini dinləyib.**



# Naxçıvan azadlıq havası "alır"

## Seymur Verdizadə: "Fuad Nəcəfli əslən naxçıvanlı olduğu üçün bölgəni yaxşı tanıyır, əhalinin problemlərinə yaxından bələddir"

Naxçıvandan olan ekspert Heydər Oğuzun məlumatına görə, bəziləri ənənəyə sadiq qalaraq, Fuad Nəcəfli barədə "bəytərifi" deməyə çalışsalar da, o, tərif eşitmək üçün toplantı keçirmədiyini diqqətə çatdırıb və qonaqları şikayətlərini dilə gətirməyə çağırıb. Bildirilib ki, toplantıda bəzi icra başçıları və Ali Məclis sədrini əvəz edən Azər Zeynalov da iştirak edib. Xatırladaq ki, Fuad Nəcəfli sıravi naxçıvanlılarla da görüşüb. O, insanların qayğılarını dinləyib, arzu və istəkləri ilə tanış olub. Fuad Nəcəfli onunla xatirə şəkli çəkdirmək istəyən Naxçıvan sakinlərinin bu arzusunu həyata keçirib. Dünən axşam saatlarından başlayaraq, naxçıvanlı sosial şəbəkə iştirakçıları yeni rəhbərlə şəkillərini müxtəlif platformalarda paylaşıblar. Naxçıvan sakinlərindən biri deyib ki, Prezidentin səlahiyyətli nümayəndəsi qapısının onların üzünə həmişə açıq olduğunu deyərək, problemlərinin həlli üçün birbaşa onun özünə müraciət etməyi tövsiyə edib. Vurğulanıb ki, Naxçıvanda qanundan kənar, kiminsə kefinə görə tətbiq edilən qadağaların hamısı ləğv olunacaq. Deyilənə görə, artıq problemlər araşdırılır, Prezidentin tövsiyələrinə uyğun şəkildə məsələlərin həllinə çalışılır. F.Nəcəfli də deyib ki, Prezidentin tapşırıqları çoxdur və onların qısa müddətdə həll edilməsi mümkün deyil, bir az vaxt lazımdır. Xüsusi nümayəndə bildirib ki, Ali Məclis öz fəaliyyətini davam etdirəcək: "Məclis qanunverici orqan, Xüsusi nümayəndəlik isə icra orqanı kimi fəaliyyət göstərəcək".

> "Fuad Nəcəfli mənim tələbə yoldaşım olub. Öz sahəsinin peşəkarıdır. İş yoldaşları onu bacarıqlı idarəçi kimi təqdim edirlər"

**Jurnalist Araşdırmalar Mərkəzinin rəhbəri, "Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə "Şərq"ə açıqlamasında Prezidentin xüsusi səlahiyyətli nümayəndəsini yaxşı tanıdığını, şəxsiyyətinə bələd olduğunu deyib:** "Fuad Nəcəfli ilə eyni universitetdə təhsil almasaq da, eyni şəhərdə oxumuşuq. Onu uzaq 90-cı illərdən tanıyıram. Fuad Nəcəfli Ankaradakı məşhur Orta Doğu Texnik Universitetinin məzunudur. Bu universitet tələbələrinə verdiyi təhsillə təkcə Türkiyədə deyil, bütün dünyada məşhurdur. Fuad müəllimlə uzun illərdən bəri görüşməsək də, həmişə xoş sədasını eşitmişəm. Öz sahəsinin peşəkarıdır. İş yoldaşları onu bacarıqlı idarəçi kimi təqdim edirlər. Fuad Nəcəfli əslən naxçıvanlı olduğu üçün bölgəni yaxşı tanıyır, əhalinin problemlərinə yaxından bələddir. İnanıram ki, həmin problemlərin həlli istiqamətində qətiyyətli addımlar atacaq, ölkə prezidentinin onun qarşısında qoyduğu vəzifələri layiqincə yerinə yetirəcək".

**S.Verdizadə vurğulayıb ki, Naxçıvan strateji bölgədir:** "Naxçıvana rəhbərlik edən şəxs ayıq-sayıq olmalı, gecə-gündüz çalışmalıdır. Təəssüf ki, Vasif Talıbovdan xələfinə çox pis miras qalıb. Talıbov və yaxınları uzun illər Naxçıvanı atalarının mülkü kimi idarə ediblər. Ümid edirəm, Fuad Nəcəfli Naxçıvanda çox şeyi yaxşı istiqamətdə dəyişə biləcək. Azərbaycanda fəaliyyət göstərən ictimai institutların, mətbuatın, televiziyaların bu işdə ona dəstək olması vacibdir".

**İsmayıl Qocayev**

# Putin geri çəkilmək niyyətində deyil

## Moskva hərb variantını təzyiqedici mexanizm kimi böyüdərək Ukraynanı niyyətinin ölçüsü barədə xəbərdar edir



"Rusiya Prezidenti Vladimir Putin Ukraynadakı müharibənin nəticələrinin Moskvanın xeyrinə yekunlaşdırılması üçün tapşırıqlar paketini hakim zümrə qarşısına qoyur". Bu barədə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert vurğulayıb ki, Putin Ukraynadakı müharibəyə dair elita arasında dəstəyin olmamasından narahatdır və onlara müxtəlif təzyiqlər edilməsi mümkündür: "Rusiyanın Ukraynadakı taktiki məğlubiyyətləri Moskvanın hiddətini artırır və Putin nə olursa-olsun, Kiyevi məğlub etməkdən ötrü müxtəlif yollar axtarır. Hələlik isə Rusiya cəbhədəki uğurlarını göstərmək üçün Baxmut bölgəsində keçirdiyi hərbi əməliyyatları kuliminasiya nöqtəsinə yaxınlaşdırmağı hədəfləyir. Təbii ki, Qərblə danışıqlara getmək, Ukrayna ərazisinin didilməsi kampaniyasının "xeyir"ləri barədə fikirlərə NATO-nu inandırmaq da Moskvanın "sülh gündəliyi"nin məzmununda yer alır. Ukraynadakı müharibəni, onun gedişatlarını və nəticələrə dair proqnozları səthi təsviri ifadələrlə izah etmək düzgün deyil. Çünki şiddətli döyüşlər davam etdikcə dünya siyasi nizamı hər atılan mərmi ilə bir pillə geriyə gedir. Ukrayna beynəlxalq münasibətlər sisteminin dağıdılaraq onun yerində yenisinin inşa edilməsi cəhdlərinin sınandığı meydandır. Ukrayna öz ərazi bütövlüyü və suverenliyinin təmini üçün müdafiə qalxanını qaldırsa da, cəbhədə bir sıra uğurlar əldə etsə də, hələ Kiyevin qələbəsindən danışmaq çox tezdir. Qarşıda min kilometrlərlə uzanan işğal zolağını yarmaq vəzifəsi dayanır. Rusiya işğal zonasının müdafiəsini gücləndirir. Qərbin Ukraynaya verdiyi silahlar və Kiyevin əks-hücum əməliyyatları nəticəsində həmin əraziləri itirəcəyindən ehtiyatlanır".

***"Sülh danışıqları məqbul variantdır, lakin tərəflərin müharibəni sonlandıra biləcək gündəliyi daban-dabana ziddiyyətlərlə doludur"***

A.Kərimov qeyd edib ki, Rusiyanın qorxuqarışıq ehtiyatları arta-arta Kremldə saraydaxili didişmələr və vəzifələr uğrunda savaşa çevrilir: "İndi müdafiə naziri Sergey Şoyqu, baş qərargah rəisi Valeri Gerasimovun vəzifələrinə göz dikənlər az deyil. Putinin casus ovuna çıxması isə vəzifə hərislərinin xeyrinədir. Onlar indi devirmək istədikləri şəxslər haqqında kompromat toplamaqla, Ukraynadakı savaşın cari nəticələrinin günahını kimləsə yükləməklə məşğuldurlar. Hərçənd, elə ali mənsəb yiyələrinin özlərinin də günahı az deyil. Ukraynadakı müharibə Kiyevi bir başqa, Moskvanı isə məzmunca fərqli tilsimli dairənin içərisinə itələyir. Lakin kənar müşahidəçilər bu tamaşanı seyr edərək daha çox özlərinə ziyan gəlməməsini düşünür və qazanclarını bollaşdırırlar. Moskvanın hədələrinin limiti keçdikdə isə NATO bir qədər geri çəkilir və Ukraynanı danışıqlara qoşmaq üçün əlindən gələni edir. Sülh danışıqları məqbul variantdır, lakin tərəflərin müharibəni sonlandıra biləcək gündəliyi daban-dabana ziddiyyətlərlə doludur. Rusiya isə belə bir məqamda yenidən Belarus ərazisindən Ukraynanın şimalına hücumlar etməyi planlaşdırır. Rusiya ilə Qərb arasında gizli təmaslarda nəticə hasil olunmur. Moskva hərb variantını təzyiqedici mexanizm kimi böyüdərək Ukraynanı niyyətinin ölçüsü barədə xəbərdar edir. Rusiya Baxmutu tuta bilsə, bu, Ukrayna üçün çətin olacaq və mümkündür ki, bundan sonra müharibə tərəfləri yorğun düşən qüvvələri "dincəlməyə" göndərəcəklər. Ancaq Rusiya bir yerdə uğur qazananda digər yerdən zərbə alır, Ukraynanın hərbi əməliyyat planlarının Qərbdə effektiv hazırlanması üçün işlərin getdiyini deyə bilərik. Yəni hadisələrin hansı axara girəcəyi Rusiyanın hücum, Ukraynanın əks-hücum əməliyyatlarının miqyasından və nəticələrindən asılı olaraq qalmaqdadır".

**İsmayıl**

***"Bunun tətbiqi isə vaxt məsələsidir. Ona görə ki, güc və məkan əleyhimizədir və İrəvan hər zamankı kimi sözünü dəyişir"***



# Ermənistan sülhə gəlmir

## Ortada yalnız sərt gücün tətbiqi qalır

**"Gələn il Ermənistan Brüsseldə aparılan danışıqlar üzrə üçtərəfli formata qayıda bilər".**

Bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev 2022-ci ilin yekunlarına həsr olunan mətbuat konfransında deyib.

O bildirib ki, bu, bir neçə məqamdan, o cümlədən Laçın yolundakı durumdan asılıdır: "Maraqlıdır ki, Azərbaycan qalib dövlət olmasına baxmayaraq, sülhə daha çox səy göstərir. Moskva və Brüssel formatı gələcəkdə bərpa oluna bilər. Həmçinin Vaşinqton formatı da yarana bilər. Amma başqa format ağlabatan görünmür".

**2022-ci ilin siyasi problemlərin pik həddə çatması ilə yekunlaşdığını deyən Atlas Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Şərq"ə bildirib ki, Ermənistanla Azərbaycan arasında məsələnin həlli ilə bağlı yaxınlaşma yoxdur:** "Rəsmi İrəvan Bakının sülh sazişinə yönəlik 5 təklifini qəbul etmir və öz təkliflərini irəli sürür. Ümumiyyətlə, qarşıdan gələn ildə də problemlərin öz yönündə davam edəcəyini düşünürəm. Çünki Azərbaycanın istəkləri üzərinə əsas məsələ sərhədlərin tanınmasıdır.

Bununla da Ermənistan Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanımaq məcburiyyətində qalır. Sırf bu səbəbdən də rəsmi İrəvan siyasi dialoqların istər Rusiya, istərsə də Vaşinqton formatından yayınmağa çalışır. Yəni Paşinyan siyasi hakimiyyətini qorumaq üçün prosesi uzadır. Sülh müqaviləsinin imzalanması, Ermənistan üçün Qarabağda olan yaraqlıların bölgədən çıxarılması və Laçın dəhlizinin statusunun ləğv olunması deməkdir. Bu yöndə isə Ermənistanın siyasiləri heç bir mesaj vermirlər".

*Analitik qeyd edib ki, belə hallar olduqda siyasətdə iki variantdan istifadə edilir:* "Ya iki tərəf də biri-birinin mövqeyini qəbul edir, ya da güc vasitəsilə qəbul etdirilir. İndiki məqamda Ermənistan Azərbaycanın sülhə yönəlik mövqeyini qəbul etmədi. Ortada yalnız sərt gücün tətbiqi qalır. Bunun tətbiqi isə vaxt məsələsidir. Ona görə ki, güc və məkan əleyhimizədir və İrəvan hər zamankı kimi sözünü dəyişir. Onlar Vaşinqtonda bir cürə, Brüsseldə fərqli, Şoçidə isə başqa formada danışır. Hələlik sülh sazişinin hansısa formatda imzalanacağı gözlənilən deyil. Məsələnin siyasi yolla həlli görünmür. Bu səbəblə də 2023-cü il də gərgin keçəcək".

**Nihat Müzəffər**

# Ərdoğan "Nobel" sülh mükafatı ala bilər

## Tural Abbaslı: "Məhz Ərdoğanın səyi nəticəsində Qərb-Ukrayna və Rusiya arasında "taxıl sazişi"nin imzalanması baş tutdu"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın namizədliyi "Nobel" sülh mükafatına irəli sürülüb. Bu barədə Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bildirib. O qeyd edib ki, onun müraciətini müxtəlif ölkələrdən parlament sədrləri, millət vəkilləri də dəstəkləyəcək. Ərdoğanın Rusiya və Ukrayna arasında sülh yaratmaq məqsədilə göstərdiyi səylərə görə bu mükafata namizədliyinin irəli sürüldüyü bildirilib.**

Həmçinin qeyd olunub ki, əslində heç nə etməyən Obama yalnız Fələstin probleminin həllində göstərdiyi səylərə görə "Nobel" sülh mükafatına layiq görülüb. Ərdoğan Rusiya və Ukraynanı barışdırmaq üçün Obamadan daha çox iş görüb və görməkdə davam edir. ABŞ Müdafiə Nazirliyinin sabiq müşaviri Dov S.Zakhaym da Ərdoğanın Ukrayna taxılının ixracı və immiqrasiya sahəsindəki siyasi uğurlarına diqqət çəkərək, onun "Nobel" sülh mükafatına namizədliyə layiq olduğunu bildirmişdi.

**AĞ Partiyanın sədri Tural Abbaslı "Şərq"ə açıqlamasında vurğulayıb ki, türk-islam dünyasının istənilən təmsilçisinin belə bir mükafata layiq görülməsi mühümdür və dəstəklənməlidir. Partiya rəhbəri vurğulayıb ki, əgər söhbət Türkiyənin lideri, dünyada böyük nüfuz sahibi olan Rəcəb Tayyib Ərdoğandan gedirsə, məsələ daha önəmli hala gəlir:** "Əgər "Nobel" sülh mükafatını verən, namizədləri müəyyən edən komissiya ədalətli olarsa, həqiqətən də həmin mükafat Ərdoğana verilməlidir. Rusiya-Ukrayna savaşı bütün dünyanı iqtisadi böhrana yuvarlayır. Ciddi iqtisadi problemlər yaşanır, bir sıra ölkələrdə aclıq başlayıb. Enerji daşıyıcılarının qiyməti hədsiz yüksəlib. Əməlli-başlı qlobal fəlakət yaşanır. 6800 dinc əhalinin öldüyü deyilir. Təəssüflər ki, bir çox ölkələr, hətta ABŞ və bəzi Avropa ölkələri bu müharibədən, fəlakətdən öz maraqları üçün yararlanmağa cəhd göstərirlər. Yeganə ölkə Ərdoğanın rəhbərlik etdiyi Türkiyədir ki, bu məsələdə tam səmimiyyətlə bütün səylərini ortaya qoyub. Məhz Ərdoğanın səyi nəticəsində Qərb-Ukrayna və Rusiya arasında "taxıl sazişi"nin imzalanması baş tutdu. Avropa və kasıb Afrika ölkələrinə gəmilərlə maneəsiz taxıl daşındı. Türkiyədə Ukrayna-Rusiya rəsmilərinin nəticəli görüşləri reallaşdı. Eyni zamanda Ərdoğanın Suriya və İraqda baş verən hadisələrdə mühüm rol oynaması, 3 milyon suriyalı qaçqının qəbul edilməsi çox vacib elementlərdir. Bunların hamısı mükafata layiq addımlardır. Azərbaycan da bu təşəbbüsü dəstəkləməlidir".



***"Avropa və kasıb Afrika ölkələrinə gəmilərlə maneəsiz taxıl daşındı"***

**T.Abbaslı hər şeyə rəğmən, "Nobel" sülh mükafatının Ərdoğana veriləcəyinin o qədər inandırıcı olmadığını deyib:** "Əgər bir mükafat türk-islam dünyasına mənfi münasibət sərgiləyən Qərb ölkələrinin nəzarətindədirsə, yəqin ki, türk-islam dünyasının liderini nəyəsə layiq görməzlər. "Nobel" sülh mükafatının terrorçulara, heç bir iş görməyən siyasi avantüristlərə verilməsi faktı da bunu göstərir. Təbii ki, cənab Ərdoğanın belə bir mükafata ehtiyacı yoxdur. Onsuz da Ərdoğan bütün türk-müsəlman dünyasının nüfuzlu lideri kimi ən üstün mükafatlara layiqdir".

**İsmayıl Qocayev**



# İrəvan danışıqlar prosesini pozur

## Ermənistan uğrunda İran, Rusiya, Fransa və ABŞ arasında mübarizə gedir

**Azərbaycan XİN başçısı Ceyhun Bayramov mətbuat konfransında bir çox məqama toxunub. Nazir Ermənistanla sülh müqaviləsinin imzalanmasına mane olan məqamları açıqlayıb. Qeyd edib ki, danışıqlarda bəzi narahatedici məqamlar var: "Biz tərəfdən 3 element var.**

Birinci element belədir ki, hansısa layihə təqdim olunanda birdən-birə öz istək və arzularınızı ora daxil etməli deyilsiniz. Bu layihə real və beynəlxalq hüquqa əsaslanmalıdır. Azərbaycan məhz bundan irəli gələrək 5 baza prinsipini təqdim etdi. Qısa zamanda Ermənistan 5 baza prinsipində onlar üçün qəbuledilməz heç bir prinsipin olmadığını etiraf etdi. Lakin Ermənistan tərəfdən danışıqlar prosesində bəzi şərhlərə baxanda əldə olunmuş razılaşmalardan geriyə addımları görürük. Hesab edirik ki, bu çox ziyanlı tendensiyadır".

XİN başçısı danışıqlar prosesinin Ermənistan tərəfindən ictimai məkana sızdırıldığını da bildirib: "Prosesə çox mənfi təsir edən məqam yalnız sülh müqaviləsi ilə bağlı deyil. Ermənistan danışıqlar prosesində müzakirə predmeti olan məqamlarla bağlı ictimai məkana informasiyalar sızdırır. Bu, sosial şəbəkələr vasitəsilə edilir. Birincisi, bunu sızdırmaq danışıqlar prosesində çox ziyanlıdır. İkincisi isə bu, qarşı tərəfin mövqeyini əks etdirmir. Bizdən fərqli olaraq, vasitəçilər Ermənistanı bu məsələdə açıq-aşkar günahlandırmır. Biz bunun çox zərərli olduğunu bildirmişik. Vasitəçilər də bunu görür".

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi"nin rəhbəri Samir Hümbətov "Şərq"ə bildirib ki, danışıqlar prosesinin Ermənistan tərəfindən pozulması ciddi müzakirə predmetinə çevrilib. Analitik xatırladıb ki, Brüssel formatında keçirilən görüşlərdə müəyyən razılaşmalara cəhd edilirdi:** "Düzdür, yenə də ortada hansısa konkret razılaşma, irəliləyiş yox idi. Amma ən azından görüşlər baş tutur və sülh istiqamətində cəhdlər müşahidə edilirdi. Rusiyanın Cənubi Qafqazla bağlı planlarının yenidən işə salınması, İranın maraqlarının qabarması, Fransanın avantürist hərəkətləri, ABŞ-nin müdaxiləsi prosesləri çıxılmaz hala saldı. Nəzərə alaq ki, Ermənistan indiki halda dəqiq oriyentasiyanı tuta bilmir. Bilmir ki, siyasi inteqrasiyanı hansı istiqamətə yönəltsin. Avropaya istiqamətləndiyi zaman Moskvadan təzyiq görür, üzünü Kremlə çevirir, Qərbin qəzəbinə tuş gəlir. Yəni danışıqlar prosesinin pozulması bir yox, bütün tərəflərin iştirak niyyətindən irəli gəlir. Ermənistan uğrunda İran, Rusiya, Fransa və ABŞ arasında mübarizə gedir. Ermənistanda birhakimiyyətlilik yoxdur. Əgər vahid idarəetmə sistemi olsaydı, bu gün belə problemlərlə qarşılaşmazdıq. Müzakirələrin də nəticələri olardı. Digər yandan İrəvan hökuməti erməni cəmiyyətini proseslərə hazırlaya bilmir. Hökumət və müxalifət arasında düşmən münasibət hökm sürür və bunun da acısını erməni ictimaiyyəti çəkir. Siyasi təcrübəsizlik, diplomatik danışıq mədəniyyətinin aşağı olması, hökumət-müxalifət-cəmiyyət qarşıdurması, xarici müdaxilələr ümumilikdə danışıqlar prosesini tormozlayır".

**İsmayıl Qocayev**

# Problemdən çıxış yolu göstərildi

## "Təhsili evlərdən çıxarıb, məktəblərə qaytarmalıyıq"



**"Təhsil ekspertləri 7-8 ildir, repetitorluq sisteminin məktəblərdə vüsət alması ilə bağlı həyəcan təbili çalırlar".**

Bu barədə "Şərq"ə təhsil eksperti Elçin Əfəndi repetitorluğun ziyanından danışarkən bildirib. Onun qənaətincə, sözügedən istiqamətdə təəssüf ki, iş aparılmır: "Dərslərin normal keçirildiyi orta və tam orta ümumtəhsil müəssisələri barmaqla sayılacaq qədərdir. Digər məktəblərin yuxarı siniflərində isə tədris qənaətbəxş hesab edilmir. Müəllim əməkhaqqı xatirinə, şagird sonda attestat ala bilmək üçün gedir. Əksər yuxarı sinif şagirdinin orta təhsil müəssisələrində verilən biliyə marağı yoxdur. Fərdi müəllimlə hazırlaşanlar, demək olar ki, məktəbə getmirlər. Dərslərdə iştirak edənlərin çox hissəsi isə oxumağa həvəs göstərməyən uşaqlardır.

Bunun qarşısını almaq üçün əlbəttə, ilk növbədə, təhsili məktəblərə cəlb etməli, qaytarmalıyıq. Üstəlik, müəllimlərin əməkhaqlarını yüksəldib, onların sırf məktəbdə təhsilin keyfiyyətinin artırılması ilə bağlı əlindən gələni etmələri üçün çalışmalıyıq.

***"Üstəlik, müəllimlərin əməkhaqlarını yüksəldib, onların sırf məktəbdə təhsilin keyfiyyətinin artırılması ilə bağlı əllərindən gələni etmələri üçün çalışmalıyıq"***

Müəllim öz fənnini orta təhsil müəssisəsində tədris etməlidir. Sinifdəki 25 uşağın 18-ni evə aparıb, hazırlıq keçmək barədə düşünməli deyil. Amma bu gün repetitorluğun müsbət effekt verdiyini müşahidə edirik. Hazırda Azərbaycanda məktəbi bitirən 80-90 min şagirdin 50 mini ali təhsil müəssisələrinə qəbul olmaq məqsədilə sənəd verirsə, 45 mini universitet tələbəsi olur.

Repetitorluq olmasa, əlbəttə, bu rəqəm 15-20 min həddinə qədər enər. Mənfi tərəfi isə indiki vaxtda müəllimin valideyn və şagirddən asılı qalmasından ibarətdir. Ona görə valideyn də, uşağı da müəllimin üzərinə hücum çəkə biləcəyini zənn edir. Bunların da hər birinin əsas səbəbi repetitorluq fəaliyyətinin daha da genişlənməsidir. Dünyanın əksər ölkəsində repetitorluq sistemi var. Lakin ölkəmizdəki qədər qabardılmış, şişirdilmiş durumda deyil. İş o həddə çatıb ki, bağçaya gedən uşaqları belə repetitor yanına qoyurlar. Məlum vəziyyətin sistem halına gətirilməsi üçün aidiyyəti qurumlar artıq işə başlamalıdır. Əks halda, problem qarşıdakı dövr ərzində də davam etməkdə olacaq".

Qeyd edək ki, ötən gün Milli Məclisin iclası keçirilib. Parlament üzvü Fəzail Ağamalı çıxışında vurğulayıb ki, repetitorluq sistemi orta məktəbləri dağıdır, uşaqlar 8-9-cu siniflərdən sonra məktəblərə getmirlər.

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azad sahibkarlığın, liberal iqtisadiyyatın təşviqi**



# İşğaldan azad edilmiş ərazilərdə onlarla sahibkar çalışır

## Tətbiq olunacaq güzəştlər sahibkarlıq fəaliyyətinin dayanıqlı və gəlirli olmasını təmin edəcək

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən "Dayaq" mükafatının təqdimetmə mərasimi keçirilib. Bu mükafat KOBİA-nın sahibkarlığın təşviqi ilə bağlı həyata keçirdiyi növbəti bir proqramın yekunu olaraq bir sıra biznes nümayəndələrinə təqdim edilir. Mükafata "Dayaq" adının verilməsi isə dövlətin sahibkarlara daim dayaq və dəstək olması anlamındadır. Mükafatlandırmada əsas məqsəd nailiyyətləri ilə seçilən sahibkarların fəaliyyətini təqdir etmək və onların timsalında sahibkarlıq hərəkatının daha da genişləndirilməsini təşviq etməkdir.**

Tədbirdə çıxış edən KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, 28 dekabr tarixi həm də, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaranması günüdür: "Ötən 5 il ərzində daim inkişaf etməyə, sahibkarların yanında olmağa və fəaliyyətimizi onların ehtiyac və gözləntilərinə uyğun qurmağa çalışdıq. Müxtəlif sahəvi müzakirələr, sorğular və sahibkarlar ilə yerlərdə görüşlər nəticəsində alınan məlumatlar həyata keçirdiyimiz tədbirlərin doğru istiqamətləndirilməsi, təkmilləşdirilməsi və çatışmazlıqların aradan qaldırılması baxımından əhəmiyyətli olub. Bir qədər sonra mükafat alacaq hər bir sahibkarın, eləcə də Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, təltif edilmiş sahibkarlarımızın əldə etdiyi nailiyyətlər bizi sevindirir. Çünki bizim fəaliyyətimizin, dövlətin dəstəyinin nəticəsi məhz sahibkarların uğurları ilə ölçülür". O.Məmmədov qeyd edib ki, görülmüş işlərin nəticəsi olaraq ölkəmizdə dayanıqlı, müasir və rəqabət qabiliyyətli sahibkarlıq zümrəsi formalaşıb. Azərbaycan şirkətləri artıq xarici bazarlarda da uğurla fəaliyyət göstərir və ixrac potensialını genişləndirirlər. Ümummilli Lider Heydər Əliyevin iqtisadi inkişaf strategiyası yeni çağırışlar fonunda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu məqsədlə müxtəlif strateji proqramlar icra olunur, sahibkarlar üçün geniş vergi stimulları tətbiq olunur, real sektora investisiyalar təşviq edilir, bizneslərin inkişafı üçün çoxsaylı dəstək mexanizmləri və yeni təşkilati-hüquqi modellər hazırlanır. Ölkə rəhbərliyinin müvafiq sərəncamı ilə təsdiq edilmiş 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında sahibkarlığın, eləcə də KOB-ların inkişafının dəstəklənməsi ilə bağlı sistemli tədbirlər nəzərdə tutulub. Bu da biznes sektorunun yeni keyfiyyət mərhələsinə keçməsinə imkan verəcək. Ötən dövrdə bizneslərin fəaliyyətə başlaması və fəaliyyətlərinin genişləndirilməsi məqsədilə bir sıra dövlət dəstək mexanizmləri hazırlanaraq həyata keçirilib. Ödənişsiz təlim və konsaltinq xidmətlərini əhatə edən KOB İnkişaf Mərkəzləri, vahid məkanda "G2B" və "B2B" xidmətləri göstərən KOB Evləri və yerlərdə birbaşa sahibkarlar ilə təmasda olan KOB Dostu şəbəkələri kimi platformaları qeyd etmək olar. Növbəti ildən bir sıra vergi güzəştlərinin şamil olunduğu KOB klaster şirkətlərinin yaradılması istiqamətində əməli addımlar atılacaq. Növbəti ildə icrası gözlənilən planlara mövcud dəstək mexanizmlərinin əhatə dairəsinin genişləndirilməsi ilə yanaşı, yeni təşəbbüslərin reallaşdırılması da daxildir. KOB-ların biznesin təşkili və idarə edilməsi sahəsində praktik biliklər əldə etməsi və təkmilləşdirilməsi məqsədilə beynəlxalq təcrübədə uğurla istifadə olunan pilot "Model müəssisə" layihəsinin həyata keçirilməsi istiqamətində işlər davam etdirilir və növbəti il ərzində yekunlaşması nəzərdə tutulur. KOBİA-a mandatı çərçivəsində Qarabağın bərpası və KOB sektorunun işğaldan azad edilmiş ərazilərə qayıdışı istiqamətində fəaliyyətini davam etdirəcəkdir. Qarşıdakı dövrdə də Qarabağın biznes potensialının yerli və xarici investorlar arasında təşviqi, bu bölgədə fəaliyyət göstərməkdə maraqlı olan sahibkarlardan müraciətlərin qəbulu və ümumiləşdirilməsi, eləcə də bizneslərin yaradılması üçün zəruri əlaqələndirmə işləri KOBİA tərəfindən təmin ediləcək. Əsas məqsəd fəal dövlət-özəl sektor əməkdaşlığı platforması çərçivəsində müəyyən edilmiş hədəflərə nail olmaqdır. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov isə bildirib ki, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əsas məqsədlərdən biri kiçik və orta biznesin (KOB) qeyri-neft-qaz sektorunda ümumi daxili məhsulda (ÜDM) payının 35 faizə çatdırılmasıdır. O qeyd edib ki, Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi artımın əsas hərəkətverici qüvvəsi kimi müəyyən edilir. Strategiyaya əsasən, qeyri-neft-qaz sektorunda KOB məşğulluğunun xüsusi çəkisinin 60 faizə çatdırılması da nəzərdə tutulur: "Ölkədə özəl sektorun, o cümlədən mikro, kiçik və orta sahibkarlığın inkişafı yerli və xarici investorların ölkə iqtisadiyyatına marağını artıracaq, qeyri-neft ixracı genişlənəcək. Prezident İlham Əliyevin təşəbbüsü ilə atılan bütün addımlar ölkədə sahibkarlığın, xüsusən də KOB-ların inkişafına yönəlib". İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxışı zamanı vurğulayıb ki, sahibkarlığa dəstək baxımından indiyədək əsas alət Sahibkarlığın İnkişafı Fondunun xətti ilə güzəştli kreditlərin verilməsi olub. Fond minlərlə layihəni əhatə edir, lakin onun bir alətlə işləməsi bu günün tələbini ödəmir. Bu baxımdan Azərbaycan iqtisadiyyatının tələblərinə uyğun olaraq bir sıra maliyyə aləti ərsəyə gətiriləcək. Bununla bağlı gələn ilin birinci rübündə təqdimat keçiriləcək.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən iqtisadçı-ekspert Fuad İbrahimov qeyd etdi ki, bütün dünyada olduğu kimi Azərbaycan iqtisadiyyatı üçün də sahibkarlığın inkişafı vacib sahədir. Bu da kiçik və orta biznesin çevikliyi, məşğulluğu və iqtisadi sabitliyi ilə ölçülür:**

- Ölkədə kiçik və orta biznesin inkişaf göstəriciləri tədbirdə səsləndirildi. Bunlar, əlbəttə, sevindirici rəqəmlərdir. Hesab edirəm ki, ərazilərimizin işğaldan azad edilməsi qarşıya yeni məqsədlər qoyur. Burada əsas məsələ işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin sürətlənməsini və iqtisadi inkişafı təmin etməkdən ibarətdir. Bu da sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır.

**"Dövlətin dəstəyi ona görə vacibdir ki, sahibkarlara itkilərin qarşılanmasında kömək etsinlər. Belə olan halda biz işğaldan azad edilmiş ərazilərdə qısa zamanda bir çox sahibkarlıq subyektinin müsbət fəaliyyətinin şahidi olacağıq"**

Müsbət haldır ki, İqtisadi İnkişaf Nazirliyi işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafı üçün xüsusi yanaşmalar tərtib edir. Tədbirdə də bu fikir səsləndi ki, Qarabağda istənilən Azərbaycan vətəndaşının fəaliyyətinə xüsusi yanaşmalar hazırlanır. M.Cabbarov qeyd etdi ki, ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılmasında KOB-ların rolu əvəzsizdir. Artıq işğaldan azad edilmiş ərazilərdə onlarla sahibkar çalışır. Yanvarın 1-dən tətbiq olunacaq güzəştlər, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulan layihələr məhz iqtisadi fəaliyyətin dayanıqlı və gəlirli olmasını təmin etməyə hesablanıb. Hesab edirəm ki, sahibkarların itkilərinin minimuma endirilməsinə xüsusi diqqət ayrılmalıdır. Hazırlanan dəstək mexanizmləri işğaldan azad edilmiş ərazilərdə təşkil ediləcək sahibkarlıq subyektlərinə də tətbiq edilməlidir. Çünki məlum məsələdir, işğaldan azad edilmiş ərazilərdə çalışacaq həm vətəndaşların, həm də sahibkarlıq subyektlərinin işə başlayan kimi gəlir əldə etməsi çətindir. Bunun üçün müəyyən zaman lazım olacaq. Bu müddət ərzində zərərlərin qarşılanması vacibdir. İqtisadiyyatın diversifikasiyalaşdırılmasında kiçik və orta biznesin rolu əvəzsizdir. Baxın, iqtisadiyyatda qarşıya qoyulan maliyyə hədəflərinə nail olma baxımından və bu zaman riskləri də minimallaşdırmaq üçün diversifikasiya ən vacib komponentlərdən biridir. Diversifikasiya nədir, bu, risk-menecmenti alətidir və risklərin azaldılmasını təmin edir. Bu, kapitalın və investisiyanın kapital riskini azaltmaq üçün müxtəlif obyektlər arasında paylanmasıdır. Məsələn, sahibkar investisiyanı bir sahəyə deyil, bir neçə sahəyə yönəltməklə itki təhlükəsini azaltmış olur. Müəssisələr də həmçinin, istehsalını planlaşdırdığı məhsulun assortimentini genişləndirir, bir məhsul üzərində deyil, bir neçə məhsulun istehsalına köklənir. Nəticədə hər hansı məhsuldan gəlir əldə edir. Lakin burada dövlətin dəstəyi ona görə vacibdir ki, sahibkarlara itkilərin qarşılanmasında kömək etsinlər. Belə olan halda biz işğaldan azad edilmiş ərazilərdə qısa zamanda bir çox sahibkarlıq subyektinin müsbət fəaliyyətinin şahidi olacağıq.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

## Təbrizdə azərbaycanlı qadın idmançı həbs olundu



**İranın molla rejimi Təbrizdə azərbaycanlı xanım idmançı Məlihə Bəniəsədi həbs edib.**

Bu barədə "Azad İran" "Telegram" kanalı məlumat yayıb.

İdmançı və alpinizm üzrə təlimatçı olan Məlihə Bəniəsəd dekabrın 18-də Təbrizdə öz iş yerində rejimin təhlükəsizlik qüvvələri tərəfindən tutulub.

Hələlik azərbaycanlı idmançı qadının həbs səbəbi və harada saxlanıldığı barədə məlumat verilmir.

## Ermənistan Gümrüdəki Rusiya hərbi bazasını blokada ilə hədələyir



**Ermənistan Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasının blokadasını təşkil edə bilər.**

APA xəbər verir ki, bu barədə Ermənistanın "Milli Demokratik Qütb" siyasi hərəkatının üzvü Vahe Qasparyan bildirib.

Vahe Qasparyan bunu Laçın yolundakı vəziyyətlə əlaqələndirib.

Laçın yolunun guya bağlı olduğunu iddia edən Qasparyanın sözlərinə görə, əgər yaranmış vəziyyət aradan qalxmazsa, Ermənistan Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasının blokadasını təşkil edə bilər.

"Biz xalqımıza müraciət edərək Gümrüdəki hərbi bazanın blokadaya alınmasına çağırış edəcəyik. Bu məqsədlə MDQ Ermənistanda bir sıra siyasi dairələrlə müzakirələr aparacaq, hansılar ki, vəziyyəti bizim kimi qiymətləndirərək Qarabağın ruslar tərəfindən blokadaya alınması fikrindədir", - "Qafqaz Bürosu" Telegram kanalı Qasparyandan sitat gətirib.

# Həkim səhvi bəlkə də ən son sırada dayanır

## Zəhərlənmələr daha çox vətəndaş məsuliyyətsizliyinin nəticəsində baş verir

**Bu ilin dekabr ayı ərzində Kliniki Tibbi Mərkəzə zəhərlənmə ilə bağlı 891 nəfər müraciət edib. Mərkəzin Mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, müraciət edənlərdən 126 nəfəri Toksikologiya şöbəsinə qəbul edilib, digərlərinə isə ilkin tibbi yardım göstərilərək evə buraxılıb. Qəbul olan xəstələrdən 62-si dərmandan, 15-i sirkə turşusundan, 14-ü dəm qazından, 7-si alkoqollu içkidən, 4-ü göbələkdən, 12-si botulizmdən zəhərlənib. Digərlərindən 5-i anafilaksiya, 7-si allergik reaksiya səbəbindən xəstəxanaya yerləşdirilib.**

Zəhərlənən şəxslərin 51-i qadın, 47-i kişi, 28-i isə uşaq olub. Həkimlərin səylərinə baxmayaraq, 1 nəfər dərman zəhərlənməsindən, 5 nəfər sirkə turşusundan, 1 nəfər dəm qazından, 1 nəfər isə botulizmdən dünyasını dəyişib. Dünyasını dəyişən şəxslərdən 2-si qadın, 6-sı kişidir.

**Ağır fəsadlara və təəssüf ki, ölüm hallarına yol açan zəhərlənmələrə səbəb nədir; ehtiyatsızlıq, məsuliyyətsizlik, məlumatsızlıq, yoxsa həkim səhvimi? Təcili Tibbi Yardım Stansiyasının həkimi Şahvələd Məmmədov "Şərq"ə açıqlamasında bildirib ki, səbəblər arasında həkim səhvi bəlkə də ən son sırada dayanır. Zəhərlənmələr daha çox vətəndaş məsuliyyətsizliyinin nəticəsində baş verir:**

- Səbəblər müxtəlifdir. Bəzi zəhərlənmələr ehtiyatsızlıqdan, bəziləri isə canıına qıymaq istəyənlərin qəsdlə dərman qəbulu zamanı baş verir. Dəm qazından zəhərlənmələri də ehtiyatsızlığa aid etməliyik. Ümumiyyətlə, qida zəhərlənmələrinin böyük əksəriyyəti insanlarımızın ehtiyatsızlığından, qidanın keyfiyyətinə bələd olmamalarından irəli gəlir. Məsələn, birisi balığı tanımadığı küçə satıcısından alırsa, zəhərlənə biləcəyini də gözə almalıdır. O balıqlar bəlkə günlərlə eyni yerdə satılır. Açıq havada, müxtəlif bakterioloji çirklənmələrə məruz qalır, istehlak müddəti bitir. İnsanlarsa ağınabozuna baxmadan alırlar. Balıq çox təhlükəli qidadır. Onun təzəliyinə mütləq



**"Çox zaman şahidi oluruq ki, vətəndaş nasazlayan kimi özbaşına dərman preparatı qəbul edir. Dərman preparatlarını həkim təyinatı olmadan qəbul etmək qəti surətdə olmaz"**

əmin olmalısan. Botulizm də çox ciddi qida zəhərlənməsidir, qana keçən zəhərli komponentlər qısa zamanda sürətlə orqanizmə yayılır, bəzən bu insanları xilas etmək mümkün olmur. Eləcə də turşulardan, göbələkdən zəhərlənmələr. Dəfələrlə bildirilir ki, ev şəraitində hazırlanmış şorabaların istifadəsində ehtiyatlı olmaq lazımdır. Qapaq qabarıbsa, balonun daxilində su qabarcıqları əmələ gəlibsə, deməli, bu qida istifadəyə artıq yararsızdır. Amma bizim əhali bunu da nəzərə almır, tərkibində kimyəvi dəyişiklik baş vermiş qidanı süfrəyə gətirirlər. Göbələk də həmçinin. Çoxumuz hansı göbələklərin qida üçün yararlı olduğunu bilmirik, amma alırıq. Göbələk də ehtiyat tələb edən qida növüdür. Onun yuyulması, təmizlənməsi və bişirilmə qaydasına əməl edilməlidir. Köhnəlmiş göbələk yeməyini istifadə etmək olmaz. Yaxud dəm qazı zəhərlənməsini götürək. Nə qədər deyilir ki, ehtiyatlı olun, isitlik verən cihazların, qaz plitələrinin saz vəziyyətdə olmasına diqqət edin. Amma baxırsan ki, mənzildə qazın his verdiyi açıq hiss olunur, ev sakinlərisə buna normal baxır. Eləcə də hamam otaqlarında suqızdırıcılar düzgün quraşdırılmır, "uqar" buraxır, insanın da bundan halı pisləşir, boğulur. Dəm qazı karbon-monooksiddir. Bu da mavi yanacağın natamam yanması nəticəsində əmələ gəlir. Güclü zəhərləyici xüsusiyyətə malikdir. Mənzildə qızdırıcı vasitələr normal işlək vəziyyətdə olmalıdır ki, dəm qazı yaranmasın.

**Ş.Məmmədov bildirdi ki, dərman zəhərlənmələri iki xarakterli olur:**

- Biri özünə qəsdetmə məqsədi ilə olan zəhərlənmələrdir, biri də bilgisizlikdən. Çox zaman şahidi oluruq ki, vətəndaş nazaslayan kimi özbaşına dərman preparatı qəbul edir. Dərman preparatlarını həkim təyinatı olmadan qəbul etmək qəti surətdə olmaz. Hansı dərmanın hansı halda, hansı simptomlar zamanı qəbul ediləcəyini bilmədən aptekdən alırlar və qəbul edirlər. Bazarda kifayət qədər dərman var. Bu dərmanların hamısı Səhiyyə Nazirliyinin analizator şöbəsində analizlərdən keçir və satışa buraxılır. Dərman allergiyası və zəhərlənməsi ayrı-ayrı anlayışlardır. Məsələn, hansısa dərman keyfiyyətsizdir və yaxud qablaşdırması standarta uyğun deyilsə, müəyyən problemlər yaranır. Əslində Azərbaycanda belə bir hal yoxdur. Dərmanların hamısı nazirlik tərəfindən sertifikatlaşdırılır və analiz olunur, daha sonra isə bazara buraxılır. Lakin əhali dərman preparatlarını həkim məsləhəti və həkim təyinatı olmadan qəbul edir. Dərmanları qarışdırırlar, ard-arda bir neçə dərman qəbul edirlər, bu da orqanizmdə zəhərlənməyə səbəb olur. Avropada, qardaş Türkiyədə əksər dərman preparatını reseptsiz heç bir halda vətəndaşa satmır. Bu, qadağandır. Adi başağrısı üçün dərman istəsən də satmırlar. Çünki başağrısına əvvəlcə nəyin səbəb olduğu bilinməlidir. Ola bilər ki, başağrısının kəsilməsi üçün qəbul edilən dərman təzyiqi, ya da şəkəri qaldırsın. Belə halda pasiyenti vəziyyətdən çıxarmaq çox çətin olur. Uşaqlarla bağlı da ata-analar hədsiz diqqətli olmalıdırlar, dərman həblərini, dərman qutularını əlçatan yerdə qoymamalıdırlar. Uşaqlara həkim göstərişi olmadan dərman verməməlidirlər.

**Məlahət Rzayeva**

# Narkomanların yalnız 2-3 faizini müalicə etmək mümkün olur

## Odur ki, vaxtında bu xəstəliyin qarşısını almaq daha asandır



**“Valideynləri antinarkomaniya tədbirlərinə cəlb etmək lazımdır”. Bu sözləri ”Şərq”ə açıqlamasında Regional Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri, ekspert Emil Maqalov deyib.**

Ekspertin araşdırmalarına görə, valideynlər uşaqlarının təhsilində iştirak etdikdə nəticə, şagird nailiyyətlərinin artması və şagirdlərin münasibətinin yaxşılaşmasına gətirir: ”Məktəblər, ailə və cəmiyyət arasında tərəfdaşlıq, gəncləri emosional sıxıntı və problemli davranışlarla bağlı olanlar da daxil olmaqla, bir sıra zərərlərdən qorumağa kömək edə biləcək güclü əlaqələr şəbəkəsini təmin edir. Valideynlər məktəblərdə baş verən hadisələrə qarşı maarifləndirici fəaliyyətlərə cəlb olunmalıdır məktəblərə və müəllimlərə dəstək olmaq üçün layihələr hazırlamaq və dəstək verməliyik. Söhbətlərin yaradılması, birgə danışıq taktikaları və valideyn tərəfdaşlıqları, məktəbin sonrakı illəri, resursları gücləndirmək üçün bir sıra strategiyaları hazırlayaq”.

**Psixoloq Sənubər Yusifovanın fikrincə, bütün bəlaları ilə gənclərin həyat tərzinə, ailə-məişət davranışlarına başucalığı gətirməyən narkomaniyaya və narkobiznesə qarşı mübarizədə valideynlər hamıdan diqqətli olmalıdırlar. Çünki hər bir valideyn uşağının böyüdükcə xarakterində və davranışında olan qeyri-adiliyi dərhal bilmək, duymaq imkanına malikdir:** ”Ata, ana övladlarının yetkinlik dövrünün məşğuliyyətinə, kimlərlə oturub-durmasına, boş vaxtlarını necə keçirməsinə, evdən məktəbə, instituta, dostları ilə əylənməyə nə vaxt gedib, nə vaxt qayıtmasına nəzarət etməlidirlər. Təcrübədə görmüşük, elə məşhur və ictimaiyyətə kifayət qədər tanınmış valideynlər var ki, uşaqlarını müayinə və müalicə üçün peşman-peşman müraciət edirlər. Bu valideynlər həkimin təəccübünü görəndə - vallah, dünəndə-srağagündə bilmişik, tək oğul övladımdı, əlimdən gedir, kömək eləyin, - deyə ümidlərini həkimə və müalicəyə bağlayırlar. Belə valideynlər vaxtında uşaqlarını nəzarətsiz buraxmasaydılar, övladına verdikləri pulu nəyə sərf etdiklərini bilsəydilər, bir sözlə, valideyn nəzarəti funksiyasına lazımınca riayət etsəydilər, uşaqlarının gizli əməllərindən vaxtında xəbərdar olardılar. Təcrübə göstərir ki, narkomanların yalnız 2-3 faizini müalicə etmək mümkün olur. Odur ki, vaxtında bu xəstəliyin qarşısını almaq daha asandır. Buna görə də gənclərimizin narkomaniyaya mübtəla olmaması üçün ata, ana, qohum-qardaş, hətta ətraf qonşular da əllərindən gələni etməlidirlər”.

***"Buna görə də gənclərimizin narkomaniyaya mübtəla olmaması üçün ata, ana, qohum-qardaş, hətta ətraf qonşular da əllərindən gələni etməlidirlər"***

**Şəymən**

# İnzibati metodlar önəmlidir

## Ancaq cəzaların sərtləşdirilməsi uşaqlara qarşı cinayətlərin azalmasına səbəb olmayacaq



**14 yaşına çatmayan şəxslərə qarşı zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olanlar 20 ilədək azadlıqdan məhrum ediləcək.**

Cinayət Məcəlləsinə edilən dəyişikliyə əsasən, zorlama aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on beş ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq. Qeyd edək ki, qüvvədə olan Məcəlləyə əsasən, həmin cinayəti törətmiş təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə on ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq müdafiəçisi Çingiz Qənizadənin sözlərinə görə, cəzaların sərtləşdirilməsi uşaqlara qarşı cinayətlərin azalmasına səbəb olmayacaq. Hüquq müdafiəçisinin fikrincə, təkcə inzibati metodlarla hansısa bir məsələdə tam nailiyyət əldə etmək qeyri-mümkündür:** ”Bu həmişə belə olub. Sadəcə, bu məsələ paralel getməlidir. Yəni əgər biz inzibati metodlarla hansısa cəzaların və yaxud reaksiyaların sərtləşdirilməsini arzulayırıqsa, digər tərəfdən, bu istiqamətdə ciddi maarifləndirici işlər aparılmalı, müəyyən roliklər, verilişlər hazırlanmalı, buna xüsusi önəm və diqqət etməliyik. Lakin bu gün biz nəyi görürük? Hesab edirik ki, sadəcə, qanunvericilikdə edilən dəyişikliklərlə istədiklərimizə nail olacağıq, bu isə yanlış fikirdir. Çünki biz zaman-zaman görürük ki, bu metod heç də özünü doğrultmur. Lakin bu heç də o demək deyil ki, inzibati metodların sərtləşdirilməsini ön plana çəkməyək. Əlbəttə ki, bu da vacibdir. Bu baxımdan hesab edirəm ki, azyaşlılara qarşı törədilən cinsi və fiziki zorakılıq, həmçinin digər hərəkətlərə görə qanunların sərtləşdirilməsini dəstəkləmək lazımdır. Çünki cəmiyyətdə bu gün əgər bu istiqamətdə cinayətkarlıq artırsa və bu, cəmiyyətin sağlam təbəqəsini narahat edirsə, onda mütləq qanunverici qurum bu məsələni müzakirə predmetinə çevirməli və düşünülmüş müəyyən təcrübələri özündə ehtiva edən toplum halında bir qərarın qəbul edilməsinə nail olmalıdır”.

**Şəymən**

**Fransada qarın yağmaması ilə əlaqədar xizək kurortlarının 70 faizi fəaliyyətini dayandırıb. Fransa xizək kurortları assosiasiyasının məlumatına görə, bu, Fransa üçün görünməmiş haldır. Xizək kurortlarından birinin təlimatçısı Jan Mişel bildirib ki, obyektlərin bağlı qalması burada işləyən minlərlə insanın işsiz qalması deməkdir. Fransa xizək kurortları assosiasiyası isə xəbərdarlıq edib ki, iqlim dəyişikliyi davam edərsə, bu sahədə çalışan 400 min insanın taleyi risk altında olacaq.**



# Yanvardan sonra güclü qar yağacaq və 2-3 gün yerdə qalacaq

## Dünyada qlobal istiləşmə getdikcə yerini soyuq iqlimə vermək üzrədir

İllərdir Bakıya da qar yağmır. Demək ki, qara həsrət qalan tək bizim ölkə deyilmiş.

**Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri, ekoloq Telman Zeynalov isə ”Şərq” ə açıqlamasında deyib ki, bu günə qədər qar yağmamasının səbəblərindən biri iqlim dəyişmələri ilə bağlıdır.** Bu, Azərbaycan da daxil olmaqla əksər ölkələrdə özünü büruzə verirdi: ”Qlobal istiləşmənin olması və iqlim dəyişkənliyi Yer kürəsində, eləcə də Azərbaycanda bir sıra problemlərə səbəb olurdu. Xüsusən də bu proseslərin baş verməsi nəticəsində qar yağmırdı ki, bu da insan sağlamlığına mənfi təsir göstərməklə yanaşı, dağlıq ərazilərdə su ehtiyatının azalmasına da səbəb olurdu. Lakin Fransadan fərqli olaraq bu il Bakıya qar yağacaq”.

Yanvar ayından sonra Azərbaycanda soyuq və şaxtalı hava şəraitinin hökm sürdüyünü vurğulayan ekspert deyib ki, yanvardan sonra güclü qar yağacaq və 2-3 gün yerdə qalacaq. Dünyada qlobal istiləşmə getdikcə yerini soyuq iqlimə vermək üzrədir. Son ildə cənub küləyinin təsiri ilə Azərbaycanda qış bir o qədər də sərt keçmir, Bakıya və bir çox rayonlara qar yağmırdı. Şimal küləyi əsəndə isə havalar soyumağa başlayacaq.

Son illərdə Azərbaycanda havanın quraq keçməsini xatırladan T.Zeynalov deyib ki, bunun səbəbi Sakit Okeanda ellinyo cərəyanının axın etməsidir: ”Ellinyo isti çay axını deməkdir, bu təbiət hadisəsi nəticəsində cənuba yağıntıların miqdarı azalır və quraqlıq başlayır. Yağıntılar isə ancaq şimala doğru yönəlir. Azərbaycan isə quraqlıq zonaya düşdüyü üçün qış mülayim keçir, yağıntının miqdarı az olurdu. Son iki ildə isə soyuq cərəyan hökm sürür. Bunun təsirindəndir ki, son aylar yağıntının miqdarı artıb. Artıq ölkəmizdə ötən illərdəki kimi quraqlıq hökm sürmür. Havalar quraqlıq keçdiyinə görə torpaq çox qızırdı. Yağıntılardan sonra isə torpağın temperaturu düşməyə başlayıb. Yanvardan marta qədər də şaxtalı və qarlı havalar başlayacaq”.

**Şəymən**

# Azərbaycan tək Bakıdan ibarət deyil

## Köçkünlər üçün tikilmiş evlərin bir hissəsi şəhid ailələrinə veriləcək



**Keçmiş məcburi köçkünlər üçün Bakının Ramana, Ümid, Kürdəxanı qəsəbələrində, Abşeron və Samux rayonlarında inşa edilmiş çoxmənzilli binalarda istifadəsiz qalan mənzillərin satışı həyata keçiriləcək.**

Bu sözləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov 2022-ci ilin yekunlarına həsr olunan mətbuat konfransında çıxışı zamanı deyib. O bildirib ki, ƏƏSMN tərəfindən 23 yanvar 2023-ci il 10:00-da həmin mənzillərin onlayn satışına başlanacaq: ”Satışdan əldə olunan vəsait ölkəmizin digər bölgələrində şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminatına yönəldiləcək”.

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyevin ”Şərq”ə açıqlamasına görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən satışı nəzərdə tutulan bu binalar məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün nəzərdə tutulsa da, 44 günlük müharibədən sonra buna ehtiyac qalmadı. İşğaldan azad olunan torpaqlarımız üçün ”Böyük Qayıdış” konsepsiyası nəzərdə tutulduğundan yeni tikilən evlərin məcburi köçkün yox, şəhid ailələri və qazilərə verilməsi daha məqsədəuyğun hesab edildi: ”Hələlik proses başlamadığı üçün konkret fikir deyə bilmirəm. Amma məndə olan məlumata görə, məcburi köçkünlər üçün tikilmiş evlərin bir hissəsi şəhid ailələrinə veriləcək, yerdə qalan hissəsi isə satışa çıxarılacaq. Əldə olunan gəlirlə bölgələrdəki şəhid ailələrinə və qazilərə evlər tikiləcək. Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumatlara əsasən deyirəm. Azərbaycan tək Bakıdan ibarət deyil. Bölgələrimizdə məskunlaşan şəhid və qazi ailələrinin sayı daha çoxdur. Bu baxımdan prosesi təqdirəlayiq hesab edirəm. Eyni zamanda yeni mənzillərin satışa çıxarılması mənzil bazarına müsbət təsir edəcək. Bu binalar dövlət layihəsi olduğu üçün xərci digər tikinti şirkətlərindən daha azdır. Çünki dövlət sifarişi və xətti ilə tikilən yaşayış məntəqələrinin torpaqları dövlət tərəfindən pulsuz verilir. Amma hər hansı bir tikinti şirkəti bina tikərsə, torpağın pulu, əlavə ödənişlər, vergilər nəzərə alınır və mənzillər baha satılır. Düşünürəm ki, bu mənzillər həmin ərazidəki bazar dəyərindən daha aşağı qiymətə satışa çıxarılmalıdır. Məcburi köçkünlər üçün tikilmiş evlər mərkəzdə deyil, Abşeron rayonu və Bakıətrafı yerlərdədir. Qiymətlər də əraziyə görə münasibdir. Çünki həmin ərazilərdə satış qiymətləri baha deyil”.

***“Yerdə qalan hissəsi isə satışa çıxarılacaq, əldə olunan gəlirlə bölgələrdəki şəhid ailələrinə və qazilərə evlər tikiləcək”***

**Ekspertin fikrincə, mənzil sosial durumu aşağı olan insanlara satılsa daha yaxşı olar. Bunun üçün də 2-3 evi olan insanların qiyməti ucuzdur deyə yatırım məqsədi ilə bu binalardan mənzil almasının qarşısı alınmalıdır:** ”Bu halda aztəminatlı ailələrin bu binalardan mənzil alması əlçatan olacaq. Ümumi satışdan əldə olunacaq gəlir hesabına həm şəhid ailələrinin, həm də müharibə əlillərinin mənzil şəraitini yaxşılaşdırmaq mümkün olacaq”.

**Şəymən**




# “Dokta" aptekindən şikayət var

## 20 manata saxta ”Nutrilak Premium” satıb

**Abşeron rayonu, Saray qəsəbəsi M.Əsədov küçəsində yerləşən ”Dokta” apteklə bağlı şikayət var.**

**Bu haqda ”Şərq”ə Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov məlumat verib.** O qeyd edib ki, vətəndaş Lamiyə Kazımova 4 aylıq körpəsinə 17 dekabr 2022-ci il tarixində Abşeron rayonu, Saray ŞTQ M.Əsədov küç, ev 1, m 67 də yerləşən ”Dokta” aptekdən dəyəri 20 AZN-ə yaxın olan ”Nutrilak Premium” qidasını alıb. Satış zamanı müştəriyə Əlavə Dəyər Vergisi (ƏDV) çeki verilib. Şikayətçi evdə qidanı məhsulun üzərində yazıldığı qaydada hazırlayarkən qoxusunun xoşagəlməz, əvvəlki qutulardan fərqli olduğunu hiss edib: ”Müqayisə üçün başqa aptekdən yenisini alıb. Həqiqətən də, qoxuların müxtəlif, xarab malın suda gec həll olduğunu görüb. Daha sonra həmin məhsulu aldığı aptekə qaytarmaq istədikdə isə müdiriyyət sözügedən qidanı geri götürməyəcəyini bildirib. Üstəlik, rəhbərlik ”Hara şikayət edirsiniz, edin, öz qanunlarımız var, nə qaytarır, nə də araşdırırıq” kimi ifadələr işlədib. Vətəndaş həmçinin qeyd edib ki, məhsulun qutusunda 6 dildə məlumat olsa da, Azərbaycan dili bölməsində idxalçı şirkət yazılmayıb. L.Kazımova internetdən araşdırıb, məlum olub ki, bu şirkət Azərbaycanda ”Nutrinet LLC” adı altında fəaliyyət göstərir”.

Qeyd edək ki, qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

**Sücayət Mehti**

**Elan**

”Royal Petrol” Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN 1500050001) balansında olan və nizamnamə kapitalına qoyulmuş əmlakları təsisçiyə (Əliyeva Sima Əzizağa qızına) qaytarılır. Yığıncaq 05.01.2023-cü il tarixində Bakı şəhəri, Nərimanov rayonu, Təbriz küçəsi -3 ünvanında keçiriləcək.

Bakı şəhəri, Əzizbəyov rayonu, Mərdəkan qəsəbəsi 3/451 saylı sahə, Heydərov Aydın Əliəkbər oğlunun adına verilmiş 003013000576 nömrəli çıxarış itdiyi üçün etibarsız sayılsın.

Bakı şəhəri, Əzizbəyov rayonu, Mərdəkan qəsəbəsi, Sahil küçəsində mülkiyyətində olan 0,12 ha torpaq sahəsində yerləşən 2 mərtəbəli evə dair verilmiş çıxarış itdiyi üçün etibarsız sayılsın. (Reyestr nömrəsi 003013002452 - 10301).

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330**
**Tirajı: 1550 Sifariş: 3811**




## Ümid, firəvanlıq və məhsuldarlıq...

### Dovşan ilində bizi yaxşı günlər gözləyir

**"Hər ilin numaroloji işarəsi var. Qarşıdan gələn 2023-cü il rəqəmlərin birləşməsində yeddini təşkil edir".**

**Bunu "Şərq"ə açıqlamasında astroloq, metafizik Məryəm Teymur qarşıdan gələn dovşan ilinin hansı yeniliklər gətirəcəyindən danışarkən deyib.**

O söyləyib ki, yeddi rəqəmi mənəvi yüksəlişin simvoludur və onun talismanı taleyin arabasıdır: "Yeddi rəqəmi sevgi və romantikadır. Yeddi kodu olan bütün illərdəki evliliklərə tanrı tərəfindən xeyir-dua verilir. Bu ildə parlaq və istedadlı uşaqlar dünyaya gəlir. Həmçinin istənilən biznes üçün də əlverişli başlanğıcdır. Qərb astroloji təqviminə görə, 2023-cü ildə də 2020-ci ildə baş verən dəyişmə tendensiyası davam edəcək. Ümumiyyətlə, bu il də mühüm qərar qəbul etməzdən əvvəl planetlərin hərəkətlərini öyrənmək məsləhətdir".

**M.Teymurun sözlərinə görə, Şərq təqvimində 2023-cu il qara su dovşanı və ya pişik ili kimi götürülür:** "Bu heyvanların ümid, firəvanlıq və məhsuldarlıq vəd etdiyinə inanılır. Çin ənənəsində su uzunömürlülüyü və sülhü təmsil edir. Dovşan isə sayıqlıq, ağıl, çeviklik və özünü müdafiə etmək rəmzidir. Ümumiyyətlə, beş element dovşan ili olur. Bu il su dovşanı ilidir. O dostdur və müxtəlif mühitlərə asanlıqla uyğunlaşır. Çin astrologiyasına görə, dovşan ilində doğulanlar mülayim, sakit, sayıq və çox məsuliyyətli insanlar olurlar. Onlar tez-tez məsuliyyətdən qaçmağa meyilli olsalar da, ətrafındakılara sadiq olurlar. Əslində su dovşanı ili 22 yanvar 2023-cü ildə başlayacaq və 9 fevral 2024-cü ildə başa çatacaq. Bu ilin uğurlu rəngləri ağ, qara, mavi, yaşıl və qəhvəyidir. Dovşan rəmzini isə istədiyiniz bir yerdə və ya pulun üstündə yerləşdirməyi unutmayın".

**Nihat Müzəffər**

## Qazıntı işləri aparan qruplar dəhşətə gəldi

### Yeraltı mağarada yaşayan bir adamı aşkar ediblər



**İngiltərədəki meşəlik ərazidə edilən xəbərdarlığın ardından bölgədə qazıntı işləri aparan qruplar yeraltı mağarada yaşayan bir adamı aşkar ediblər.**

İlk müayinələrdə həmin şəxsin 2019-cu ildən mağarada yaşadığı müəyyən edilib. Milli.Az haberler.com-a istinadən xəbər verir ki, əraziyə polis gəlib və araşdırma aparır.





# Ukrayna gözəli cəbhədə ailə qurub

### "Cəbhədəyəm, amma yenə də gözəl görünməyə çalışıram"

**Ukrayna gözəli cəbhədə evlənib. "Şərq" "NTV,com.tr"yə istinadən bildirir ki, 2012-ci ildə Ukraynada keçirilmiş gözəllik müsabiqəsinin qalibi, "Gözəllik kraliçası" titulunun sahibi Yevgeniya Prokopenko əsl xoşbəxtliyi ordu sıralarında tapıb. Sevdiyi şəxslə cəbhə bölgəsində evlənib.**

Gözəllik kraliçası əyninə əsgər mundiri geyinib, başınasa Ukraynanın milli atributu çələnglə birlikdə ağ duvaq salmaqla ölkəsinin haqq savaşına dəstək olub. Yevgeniya Prokopenko ölkəsinə dəstək olmaq üçün ordu sıralarına qatılıb. Dikdaban ayaqqabılarını əsgər çəkmələri ilə dəbli libaslarını isə əsgər geyimi və güllələkeçirməz yeləklə əvəzləyib. Sevəcəyi şəxslə də orduda tanış olub və nəhayət, evləniblər. Y.Prokopenko evlilik mərasimində çəkilmiş fotoları sosial media hesabında paylaşıb. Ukrayna gözəli paylaşıma bu sözləri əlavə edib: "Mənim cənnətim bu cəhənnəmdədir. Sevgim və dünyam!". Y.Prokopenkonun tibb bacısı olaraq orduya gəldiyi bildirilir. "Daily Star"a danışan Y.Prokopenko "rus dilini bilirəm, amma Putinin dilində danışmağı bacarmıram. Onunla hansı dildə danışmaq mümkün olduğunu da bilmirəm. Çünki o, inkişaf etmiş dünya ölkələrinin bütün dillərini anlamağı rədd edir. Onun üçün sadəcə mərmim var", - deyib. Ukrayna gözəli cəbhəyə gəlməzdən əvvəl hüquqşünas olaraq fəaliyət göstərdiyini, lakin müharibə başladıqda silahla davranmağı və tibbi yardım göstərməyi öyrəndiyini deyib. Dostlarının, səngər yoldaşlarının ölümü ona cəhənnəm yaşatsa da, bu vəziyyətdə həyata bağlanmağı bacarır. Y.Prokopenko cəbhədə ön sıra tibb bacısıdır. Döyüş bölgəsində yaralanan əsgərlərə ilkin tibbi yardım göstərir. Ukrayna gözəli əsgər çantasında makiyaj vasitələrinin olduğunu da deyib: "Cəbhənin hansı nöqtəsində olursam-olum, çantamda güzgü və makiyaj vasitələri, ətir də gəzdirirəm. Cəbhədəyəm, amma yenə də gözəl görünməyə çalışıram. Bununla əsgərlərimizi ruhlandırır, düşmənəsə göz dağı verirəm". Təhlükəli ərazilərdə təkcə insanların deyil, heyvanların da xilası üçün çalışan Y.Prokopenko "6 ay əvvəl birisi mənə



Ukrayna Silahlı Qüvvələrinin tərkibinə qatılacağımı, sığınacaqlarda, zirzəmilərdə yuxulayacağımı, atəş altında yaralıları xilas edəcəyimizi desəydi, əsla inanmazdım", söyləyib.

**Mələhət**

## Məşhur serialda onlar da rol alacaq



**"Fox" telekanalında yayımlanan "Yasak elma" serialının heyətində yer alacaq yeni aktyorların kimiliyi bəlli olub.**

**Axşam.az xəbər verir ki, ekran işində aktyorlar Murat Onuk ("Koray"), Neriman Uğur ("Sevim") ve Elif Yılmaz ("Tuğçe") rol alacaq.**

**Xatırladaq ki, bundan əvvəl Nehir Erdoğan ve Pelin Orhunerin serialda yer alacağı açıqlanmışdı.**

**Qeyd edək ki, ekran işinin baş rollarını Eda Ece, Şevval Sam və Biran Damla Yıldız paylaşır.**

## Burakla Fahriyə oğullarına qoyacaqları adı açıqladı



**Türkiyəli məşhur cütlük, aktrisa Fahriyə Evcənlə aktyor Burak Özçivitin ikinci övladlarına qoyacaqları ad bəlli olub.**

**Axşam.az xəbər verir ki, ikili oğullarına Kərəm adı qoymağı qərarlaşdırıb.**

***Qeyd edək ki, Burakla Fahriyənin Karan adlı bir oğlu da var.***

## Toylarına xərclədiyi məbləğ üzə çıxdı



**Sonuncu dəfə "İçimizdeki ateş" serialında rol alan türkiyəli aktrisa İpək Filiz Yazıcıyla musiqiçi həyat yoldaşı Ufuk Beydemirin toylarına xərclədiyi məbləğ bəlli olub.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, Sarıyerdə yerləşən otellərin birində baş tutan məclisə cütlük 1 milyon lirə xərc çəkib.**

***Qeyd edək ki, onlar 2 ay öncə Romada nikah masasına əyləşib.***





# Bəlğəmdən necə qurtulmaq olar?

### Bol maye qəbulu, buxar vannası, ılıq su, otağın havasının nəmli saxlanması fayda verir

**Qrip xəstəlikləri artdığından bir çox insan öskürmə, burun axması, gözlərin sulanması və bəlğəm narahatlığı yaşayır. Xüsusilə körpələr, uşaqlar bəlğəmi çıxara bilmədiyindən daim öskürəyə məruz qalırlar. Mütəxəssislər bir çox insan üçün əzablı hal alan bəlğəmi necə çıxarmaqla bağlı dəyərli məsləhətlər verib.**

Ağdəniz İnstitutu Yoluxucu Xəstəliklər kafedrasının həkimi Fatma Taner bəlğəm və onun necə çıxarılması yolları barədə məlumat verib. "Şərq" Türkiyə mətbuatına istinadən bildirir ki, həkim aşağı tənəffüs yollarında əmələ gələn sulu maddə - seliyin bəlğəm olduğunu deyib. Həkim qeyd edib ki, bu, tüpürcək deyil, tamamilə ağciyərlərdə əmələ gələn bir maddədir. Rəngi şəffaf, sarı, yaşıl və ağ olmaqla fərqli rənglərdə ola bilir. Ciddi ağciyər xəstəliyi keçirənlərdə qanlı bəlğəm ola bilər. Seliyin növü və rəngi keçirilən xəstəliyə görə dəyişir. Ağciyərlərdə əmələ gələn selik əsasən öskürəklə orqanizmdən kənara atılır. Seliyin funksiyası orqanizmdə toplanmış zərərli bakteriyaları orqanizmdən kənara çıxarmaqdır. Selik öskürəyə səbəb olur, öskürək nəticəsində tənəffüs yollarında və ağciyərdə toplanmış zərərli bakteriyalar orqanizmdən xaric edilir. Ağciyərlərdə həddindən artıq seliyin toplanması özünü bəlğəmli öskürək, xırıltılı nəfəsalma, köpüklü bəlğəm, udqunarkən boğazda bəlğəm hissi, boğaz qıcıqlanması, sinədə ağrı, nəfəs darlığında göstərir. Tibbi müalicə məsləhət görülən hallarda bəlğəmgətirici həblərdən istifadə edilir. Bunların əksəriyyəti maye halında siroplardır. Ağır keçməyən xəstəliklərdə, soyuqdəymə zamanı isə bəlğəm gətirmək üçün təbii vasitələrə müraciət etmək məsləhət görülür. Bol maye qəbulu, buxar vannası, ılıq su, otağın havasının nəmli saxlanması fayda verir. Həkim dərman içmədən bəlğəmin xaricə çıxarılmasının yollarını izah edib: "Hər kəsin ev şəraitində həyata keçirə biləcəyi bu üsullar bəlğəmin daha asan xaricə çıxarılmasına kömək edir. İlk növbədə çalışmaq lazımdır ki, otağın havası quru olmasın. Quru hava nəfəsalmanı çətinləşdirir, boğazı qıcıqlandırır və miqdarından daha artıq seliyin yaranmasına səbəb olur. Bol maye qəbul etmək, tez-tez ılıq su və ya çay içmək də bəlğəmi yumşaldır və onun xaric olmasını asanlaşdırır. Siqaretdən və siqaret tüstüsündən kənar olmalısınız. Siqaret onu çəkənə ziyan verməklə bərabər mənzildəkilərə, ətrafdakılara da zərərlidir və selikli qişanı qıcıqlandırır. Başqa bir yol, allergiya yarada biləcək qidalara diqqət etməkdir. Hər insan hansı qidanın onda allergik reaksiya yaratdığını bilməli və bu qidalardan uzaq durmalıdır. İsti suyla duş almaq burun və boğazdakı quruluğu azaldır və bəlğəmin rahat şəkildə xaric olmasına şərait yaranır. Qəbul edilən mayelərin içinə zəncəfil qatmaq çox faydalıdır. Zəncəfil təbii antiviral və antibakterial özəlliklərə malikdir. Bunun sayəsində artıq miqdarda seliyi qurudur, əmələ gəlməsinin qarşısını alır və nəfəsalmadakı tıxanıqlığı aradan qaldırır. Gün ərzində bir neçə dəfə zəncəfilli çay içmək bəlğəmin yumşalmasına və azalmasına yardım edir.

**Mələhət**

## Ömrü uzadır

### Gündə cəmi 4-5 dəqiqə fiziki aktivlik lazımdır



**Rusiyalı onkoloq həkim insanlara müntəzəm qısa fiziki aktivlik hərəkətlərinin ömrü uzatdığını açıqlayıb.**

Bakupost.az xəbər verir ki, onkoloq Leonid Doronin idmandan çox, gündəlik qısa fasilələrlə açıq havada gəzinti, ev heyvanı və uşaqlarla vaxt, pillələn qalxıb-düşməyin, dağa, təpəyə getməyin və avtobus əvəzinə piyada gəzməyin ürək-damar və ümumilikdə onkoloji xəstəliklərə qarşı faydalı olduğunu bildirib.

Bədənə belə az-az yükləmə iş qrafikindən idmana, məşqə vaxt tapa bilməyənlər üçün uyğundur.

"Elmi araşdırmalar göstərib ki, gündə cəmi 4-5 dəqiqə fiziki aktivlik erkən ölüm riskini 40% azaldır və xərçəngdən qoruyur.

Ona görə gündə cəmi 4-5 dəqiqənizdən keçib bədəni hərəkətə gətirin".

## İllərlə kibrit yeyən qadın

### Ağrı vəziyyətdə təcili xəstəxanaya çatdırılıb



**29 yaşlı qadın illərlə kibrit çöpü yeməyə adət etmişdi. Hər gün 5-6 ədəd kibrit yeyən qadın qarnında ağrı və kəskin qəbizlik şikayətləri ilə təcili xəstəxanaya çatdırılıb.**

Bakupost.az xəbər verir ki, qadın gecələr, əri və uşaq yatanda kibrit çöplərini əvvəlcə ağzında fırladıb, tam yumşaldıb, daha sonra hissə-hissə dişləyib udurdu.

Onun sözlərinə görə, kibritin dadını hiss edəndə özünü xoşbəxt hiss edirdi. Ailə həkimi Tatyana Zaxarova bildirib ki, adətən Pika xəstəliyi orqanizmdə vacib elementlərdən birinin çatışmaması zamanı yaranır. Bu qadında isə kəskin dəmir defisiti var idi.

"Orqanizm var gücü ilə hüceyrələrə oksigen çatdırmağa çalışır, bu zaman o təngnəfəslik, yorğunluq hiss edir.

Pikasizm dəmir defisitli anemiya ilə sıx bağlıdır, bunun əsasında hansı mexanizm dayanır, hələ tibbə məlum deyil. Görünür, orqanizm hansısa yolla özünü təmin etməyə çalışır".